

# Regionda yeni geosiyasi və geoiqtisadi nizam formalaşır

*İkinci Qarabağ müharibəsindən sonra, regionda yeni geosiyasi və geoiqtisadi nizam formalaşır. Xüsusilə, regionda sülhə və əməkdaşlığa xidmət edə biləcək bölgə ölkələrinin iqtisadi inteqrasiyasını həyata keçirə biləcək Türkiyə prezidentinin təklif etdiyi iqtisadi əməkdaşlığı özündə ehtiva edən, Türkiyə, Azərbaycan, Rusiya, İran, Gürcüstan və Ermənistanın daxil olacağı...*

Səh.9


# UNİKAL

№40 (2078) 5 noyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Azərbaycan 3+3 formatını dəstəkləyir - Prezidentin köməkçisi

*"Azərbaycan 3+3 regional əməkdaşlıq formatının yaradılmasına dair tərəfdaşları ilə diplomatik vasitələrlə müzakirələri davam etdirir".*

*"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev VIII Bakı Qlobal Forumundakı müzakirələr zamanı bildirib.*

*Onun sözlərinə görə, bu format regionda bundan sonrakı əməkdaşlığın istiqamətlərini müəyyənləşdirir: "Hazırda bununla bağlı diplomatik kanallarla təmaslar yürüdülür. Bütövlükdə, Azərbaycan bu prosesi dəstəkləyir. Həmin format əsasında müzakirələri davam etdirməklə regional əməkdaşlığın yeni platformunu yaratmağa hazırıq".*

Səh.2

Səh.3




## Azərbaycan Prezidentindən mühüm mesajlar

## "2022-ci ilin büdcəsi də sosialyönümlü olacaq"



*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Unikal" qəzetinə müsahibə verib. O, gələn ilin büdcə layihəsi və digər sosial-iqtisadi məsələlərlə bağlı fikirlərini bildirib.*

Səh.4

## Səlim Müslümovla bağlı böyük müəmma...



*Bu ilin sentyabrında sabiq əmək və əhalinin sosial müdafiəsi naziri, hazırda həbsdə olan Səlim Müslümovun barəsində olan həbs qətimkan tədbirinin müddəti növbəti dəfə uzadıldı.*

Səh.5

## İntizam komissiyasından Cavanşir Feyziyevlə bağlı AÇIQLAMA



*"Deputatların fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə müxtəlif informasiyalar gündəliyə gəlir". Bunu Unikal.org-a açıqlamasında Milli Məclisin İntizam komissiyasının sədr müavini, deputat Fəzail Ağamalı deyib.*

Səh.5

# Tərana Qumralın şəhid qardaşının qızının toyu oldu

***Müğənni Tərana Qumralın ailəsində xoş gün yaşanıb. Sənətçinin şəhid qardaşı Firdovsi Məmmədovun qızı sevdiyi şəxslə ailə həyatı qurub. Cütlüyün toyu şəhər restoranlarından birində keçirilib.***

Mərasimdə Qumralın sənət dostları Manaf Ağayev, Nuşabə Ələsgərli, İzzət Bağırov, Afət Fərmanqızı və digərləri iştirak ediblər. Onlar Təranəni bu xoş gün münasibətilə təbrik edib qardaşı qızına xoşbəxtlik arzu ediblər.

Diqqət çəkən məqamlardan biri isə onun bir vaxtlar küsülü olduğu həmkarlarının əksəriyyətini məclisə çağırması olub. Belə ki, gecədə Əməkdar artist



Nüşabə Ələsgərli, müğənnilər Manaf Ağayev, Mətanət Əsədova, Afət Fərmanqızı yer alıblar.

T.Qumral adı keçən ifaçılarla qalmaqal yaşadığı həmkarı Nazəninə görə danışmırdı. Bir vaxtlar Nazəninlə dost olan Manaf Ağayev, Mətanət Əsədova və Afət Fərmanqızı Təranə ilə küsülü idi. Hazırda isə onlar Nazəninlə küsülüdür.

Qeyd edək ki, sənətçinin qardaşı Firdovsi Məmmədov I Qarabağ müharibəsi zamanı 1991-ci il dekabrın 11-də Xankəndi ətrafında gedən döyüşlərdə başından yaralanaraq şəhid olub. Firdovsi Məmmədov Milli Ordunun ilk şəhididir.

# “Virusa yoluxanda mənə salam vermirdilər” - Nəzakət Teymurova

***”Koronaya yoluxduğum ilk vaxtlar mənə salam vermirdilər. Mən gələndə üzlərini çevirirdilər. Bəli, bu bəlaya biz də düçar olduq”.***

“Unikal” olay-a istinadən xəbər verir ki, bu sözləri ”Onda görüşək” proqramında Xalq artisti Nəzakət Teymurova deyib. O, koronavirusa yoluxduğu zamanlardan danışıb:

”Mən müalicəni bir az gecikdirmişdim. Onu da qeyd edim ki, müalicəmi Heydər Əliyev Fondu öz üzərinə götürmüşdü. Ümumiyyətlə bizim səhiyyəmiz çox inkişaf edib, hər kəsə eyni qayğı göstərilirdi. O vaxtlarda elə sizin kanalda bir layihə



var idi. Ora gedib-gəlirdim. Bunu bilmək olmur ki, kimdən yoluxursan. İndi vaksin vururlar, tədbir görürlər ki, insanlar yoluxmasın. Çalışaq, özümüzü qoruyaq”.

# Könül Xasıyeva izləyicilərini üzdü - “Sona doğru bir ömür“

***Xalq artisti Könül Xasıyeva paylaşımı ilə izləyicilərini kədərləndirib .***



“Unikal” yenisabah.az-a istinadən xəbər verir ki, sənətçi sosial şəbəkə hesabında gənclik və xəstəlikdən sonrakı fotolarını paylaşaraq bu sözləri yazıb: ”Bu da sona doğru bir ömür... Düşdüm. Qalxdım. Yenə düşdüm. Yenə qalxdım. Təkrar-təkrar düşdüm, təkrar-təkrar qalxdım. Bu gün özümə çox uzaqlardan baxdım. Və tək bir şey gördüm: Mən bu ömrü ləyaqətlə yaşadım”.

Qeyd edək ki, K.Xasıyeva onurğa iflicindən əzyyət çəkir və müalicə alır.

# Ayan da evlənmək istəyir: “Namizəd çoxdur, lakin”



***”Ürəkdən ”sənin üçün olsun” deyən aşiq Samirə oldu. Ona dedim ki, ürəyimi hiss edirsən”.***

“Unikal” sherg.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Ayan Babakişiyeva deyib.

A.Babakişiyeva ”Söz Baz” verilişdə ”evlənmək istəyirsiniz?”sualını belə cavablandırıb: ”Niyə də olmasın, mənə nə olub? Allah mənim üçün də yaratsın, bəlkə də, yaradıb. Namizəd çoxdur, lakin xəbərim yoxdur. İnşallah xəbərim olar. Toyumda da məndən müsahibə alarsınız”.

# Onların evliliyinə inanmadı: Maqazin qoxusu gəlir

***Əməkdar artist Rəşad İlyasov aparıcı Şəhriyar Əbilovla rəqqasə Oksana Rəsulovanın ailə qurmasına münasibət bildirib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, Rəşad ”Həmin Zaur” proqramında onların səmimiyyətinə inanmadığını deyib:

”Elə dost deyirlər, ikimizin də oğlu var. Bir az müəmmalı danışırlar. İkisi də xoşbəxt olsunlar. Şəhriyarla bir kanalda çalışırıq, dostumuzdur. Onları dost kimi daha çox sevirəm. Buradan maqazin qoxusu gəlir”.

Qeyd edək ki, Oksana 4 ildir gizlətdiyi həyat yoldaşının və oğlu Osmanın atasının Şəhriyar olduğunu deyib.





## Şeyxülislam: "Dünya həqiqətləri bilməlidir"

***"Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalarla bərabər bu istiqamətdə genişşaxəli fəaliyyətinin bütün istiqamətləri, o cümlədən, erməni kilsəsinin dini-ideoloji müstəvidə ölkəmizə qarşı qarayaxma kampaniyalarının qarşısının alınması yönündə apardığı miqyaslı mübarizə barədə Azərbaycan xalqı və dünya ictimaiyyəti bütün həqiqətləri bilməlidir".***

"Unikal" xəbər verir ki, bunu QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə bu gün "Vətən və İman" kitabının təqdimatında deyib.

O qeyd edib ki, biz Uca Yaradan qarşısında borcumuzu, Vətən qarşısında xidmətimizi layiqli şəkildə həyata keçirməkdən qürur duyuruq:

"Qafqaz Müsəlmanları İdarəsi Vətən müharibəsi dövründə öz geniş beynəlxalq əlaqələrindən istifadə edərək, Ermənistanın işğalçılıq siyasətini və insanlığa qarşı hərbi cinayətlərini faktlarla ifşa edib. Erməni ekstremistləri tərəfindən dinc əhalimizə qarşı törədilən terror aktları, işğal olunmuş ərazilərimizdə yüzlərlə məscid, məbəd və kilsənin, minlərlə məzarlıqların dağıdılmasını, ümumislam əhəmiyyətli irs nümunələrinin mənşəyinin saxtalaşdırılmasını və dini məbədlərin erməniləşdirilməsini, əsarətdə qalan məscidlərimizdə İslamda haram buyurulan heyvanların saxlanılması kimi vandal həqarət əməlləri barədə dünyanın bütün nüfuzlu dini mərkəz və məqamlarını, dövlət rəhbərlərini, beynəlxalq təşkilatları çoxsaylı məktub və bəyanatları, keçirdiyi konfranslar vasitəsilə ətraflı məlumatlandırımışıq".

"Azərbaycan xalqı şanlı Zəfəri böyük qurban bahasına əldə etdi. Qazandığımız qələbədə hər bir azərbaycanlının payı var. Bu mücadilədə canından keçmiş minlərlə şəhidlərimizin bizlərin üzərində haqqı var. Vətən müharibəsində xalqımız bütün etnik qrupların və dinlərin nümayəndələri sarsılmaz birlik nümayiş etdirib, zəfərə yetişdilər.

Azərbaycandakı dini konfessiyalar ölkəmizin haqq işi uğrunda bir yerdə, ciyin-ciyinə cəbhədə vuruşdular. Şəhid övladlarımızı bir yerdə Vətən torpağına tapşırdıq. Bu, Azərbaycanın reallığı, multikurtural dəyərlərimizin təntənəsidir. Minnətdarıq ki, dövlət rəhbərimiz dindarların Vətən müharibəsindəki qələbədə rolunu xüsusi qeyd edir", - deyə Şeyxülislam bildirib.

## Minsk qrupunun həmsədrlərindən biri dəyişdi

***Bris Rokfeyl ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Fransa hökumətinin saytında bildirilib. Rokfeyl bu vəzifədə 2016-cı ilin oktyabrından vasitəçi kimi fəaliyyət göstərən Stefan Viskontini əvəz edəcək.

Rokfeyl yeni təyinatdan əvvəl Fransanın Özbəkistanda və Panamadakı səfiri, Rio-de-Janeyrodakı baş konsulu olub. 2000-ci illərdə Fransanın Rusiya və Türkiyədəki səfirliklərində siyasi məsləhətçi olub.

Xatırladaq ki, bu ilin iyulunda Rusiya da ATƏT-in Minsk Qrupunda həmsədrini dəyişib. İqor Popovun yerinə bu vəzifəni İqor Xovayev tutub.

Beləliklə, bundan sonra ATƏT-in Minsk Qrupuna həmsədrliyi İqor Xovayev (Rusiya), Bris Rokfeyl (Fransa) və Endryu Şofer (ABŞ) həyata keçirəcək.

# Elman Rüstəmovdan 12 milyon manatlıq sıçrayış...

## Baş bankirə bağlı olduğu deyilən bankın xalis mənfəəti yenə göz qamaşdırdı

***Azərbaycanda bir neçə il öncə ilə müqayisədə bank sektorunda müəyyən qədər sağlamlaşma və sabitləşmə müşahidə olunsa da, bir sıra ciddi, köklü problemlər qalmaqdadır. Yerli media bəzi banklar üçün hələ də böhranlı vəziyyətin qaldığı barədə yazır. Onların bağlana bilmə riski ilə üz-üzə olduğu barədə də ara-sıra iddialar ortaya atılır.***

Lakin durumu xeyli dərəcədə yaxşı olan banklarımız da yetərincədir. Bunların ön sırasında gələnlərdən biri isə Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmova bağlı olduğu deyilən "Bank Respublika"dır.

Belə ki, bu günlərdə Azərbaycanda fəaliyyət göstərən 26 bankın hamısı 2021-ci ilin 9 ayı (yanvar-sentyabr) üzrə maliyyə göstəricilərini açıqladı. Məlum oldu ki, 2021-ci ilin 9 ayını, 26 bankın 22-si xalis mənfəət ilə, 4-ü xalis zərər ilə başa vurub.

Mərkəzi Bankın məlumatına görə, Azərbaycanın bank sektoru 2021-ci ilin 9 ayını 505,6 milyon manat xalis mənfəət ilə başa vurub. Xalis mənfəətin böyük hissəsi ABB və Kapital Bankın üzərinə düşüb ki, bu da təəccüb doğurmur. Digər banklardan isə "Bank Respublika"nın 12 milyon 100 min manat xalis mənfəət əldə etməsi diqqət çəkib. Qeyri-rəsmi olaraq ölkənin baş bankirinə bağlı olduğu deyilən qurumun durumu son illərdə diqqət çəkir. Adıçəkilən bank davamlı şəkildə yüksək nəticələr açıqlayır. Məsələn, "Bank Respublika"dan bu ilin əvvəllərində yayılan məlumatda qeyd olunurdu ki ,o, xarici çağırışlara baxmayaraq, yaxşı maliyyə nəticələri nümayiş etdirərək Azərbaycanın bank xidmətləri bazarında lider mövqeyini möhkəmləndirib. 1 yanvar 2021-ci il tarixinə bankın aktivləri 1,03 milyard manat təşkil edib ki, bu da banka ölkənin aparıcı beş bankı sırasında yerini qoruyub saxlamağa imkan verib. Məlumatda daha sonra deyilirdi: "Açıqlanmış hesabatdan həmçinin görünür ki, Bank davamlı inkişaf üçün kifayət qədər yüksək kapital ehtiyatına malikdir. Belə ki, bankın məcmu kapitalı 7% artaraq 83,9 milyon manat olmuş və minimum məcmu kapital normasını (50 mln. manat) 68% üstələmişdir...



COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan karantin tədbirlərinə baxmayaraq, Bank 2020-ci ildə müsbət dinamikanı davam etdirə bilmiş və ilin sonunda bankın xalis mənfəəti 6,02 milyon manat təşkil etmişdir. 2019-cu ilə nisbətən xalis faiz gəliri 10% -dən çox artaraq 45,5 milyon manata çatmışdır..."

Göründüyü kimi, "Bank Respublika"nın ötənilki yüksəlişi bu ilin ilk 9 ayında da davm edib və o, yenə də ölkənin ən çox xalis mənfəət əldə edən banklarından biri olmağı bacarıb.

Əlbəttə, hər birimizin arzusu ölkənin bank sektorunun sağlamlaşması, son illərdə müşahidə edilən bütün çətinlikləri həll edərək yoluna əmin addımlar atmasıdır. Bu, milli iqtisadiyyatımızın da güclənməsi, böyüməsi baxımından həlledici faktorlardan biridir. Lakin elə ötən il bir sıra bankların bağlandığı, yaxud bəzilərinin eyni riski bu və ya digər dərəcədə indinin özündə belə daşıdığı bir vaxtda adıçəkilən bankın göstəricilərinin mütəmadi olaraq yaxşılaşmasını bəziləri düşündürücü sayır. İddia edilir ki, səbəb onun baş bankir tərəfindən qeyri-rəsmi himayə edilməsidir.

Bir daha vurğulayaq ki, dövri mətbuatda "Bank Respublika" ASC-nin Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmova bağlılığı ilə bağlı mütəmadi məlumatlar yayılıb. 2017-ci ildə isə bankın rəsmi sahibi olan Natiq Quliyev (hazırda Müşahidə Şurasının üzvüdür) KİV-ə bildirib ki, Elman Rüstəmovla uzun illərdir peşəkar münasibətləri mövcuddur: "Məni sevindirir ki, Bank Respublika o qədər cəlbedicidir ki, onun adını belə tanınmış şəxslərlə əlaqələndirirlər. Elman Rüstəmov mənim çox hörmət etdiyim şəxs və peşəkar dövlət xadimlərindən biridir. Elman müəllimlə, hər bir bank səhmdarı kimi, uzun illər ərzində çox səmimi peşəkar münasibətlərimiz yaranıb. Lakin, Bank Respublikanın sahibi kimi, bir daha qeyd etmək istərdim ki, bank yalnız rəsmi hesabatlarda qeyd olunan səhmdarlara məxsusdur. Bu hesabatlardan göründüyü kimi, mənim əsas tərəfdaşlarım Almaniyanın iki tanınmış maliyyə institutlarıdır. Bunlardan biri, KfW (Almaniyanın Dövlət Bankı) bank qrupunun üzvü DEG İnvestisiya Şirkəti, digəri isə Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü Sparkassen International Development Trust".

Bununla belə, yerli KİV adıçəkilən bankın ölkənin baş bankirinə qeyri-rəsmi bağlılığında israr edir. Bundan başqa, hətta 2015-ci ildəki iki devalvasiyadan az sonra belə ölkədəki əksər bankların vəziyyətinin qeyri-qənaətbəxş olduğu bir vaxtda, "Bank Respublika"nın, demək olar, bütün göstəricilər üzrə gözqamaşdırıcı nəticələr əldə etməsinin sirri də məhz bununla əsaslandırılırdı.

Onu da deyək ki, Elman Rüstəmov adıçəkilən bankın qeyri-rəsmi şəkildə ona bağlılığına dair iddialarla əlaqədar indiyədək hər hansı münasibət bildirməyib. Niyəsi isə hamıya qaranlıqdır. Elman müəllim bunu ən azından təkzib edə bilərdi; lakin nədənsə, o, hətta buna belə ehtiyac görmür...

***Sənan Mirzə***

# Regionda yeni geosiyasi və geoiqtisadi nizam formalaşır

## Əgər Kreml "altılıq formatı"nın reallaşmasını istəyirsə, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasını təmin etməlidir

***İkinci Qarabağ müharibəsindən sonra, regionda yeni geosiyasi və geoiqtisadi nizam formalaşır. Xüsusilə, regionda sülhə və əməkdaşlığa xidmət edə biləcək bölgə ölkələrinin iqtisadi inteqrasiyasını həyata keçirə biləcək Türkiyə prezidentinin təklif etdiyi iqtisadi əməkdaşlığı özündə ehtiva edən, Türkiyə, Azərbaycan, Rusiya, İran, Gürcüstan və Ermənistanın daxil olacağı "Altılıq" platformasının baş tutması istiqamətində müəyyən səylər var. Lakin həlaki tərəflər arasındakı müəyyən problemlər və qeyri müəyyənliklər həllini tapmayıb.***

Politoloq Məhəmməd Əsədullazadə "Unikal" qəzetinə açıqlamasında deyib ki, "Altılıq" platformasının baş tutması ilə bağlı müəyyən suallar var. Onun sözlərinə görə, İran Türkiyənin bu paltformada siyasi mövqeyinin artacağından dolayı, belə bir formatı qəbul etmir: "Son aylarda Tehranın destuktiv mövqeyi bunu bir daha göstərdi. Xüsusilə, İranda hakimiyyətdə olan mühafizakarlar Türkiyə və Azərbaycana qarşı rəqib kimi baxırlar. Gürcüstana gəldikdə isə, bu ölkədə "3+3" platformasına isti baxmırlar. Rusiya ilə məlum əlaqələri qeyd edərək, belə bir layhihədə yer almayacaqlarını bəyan edib. Halbuki, Tiflisin belə bir platformada yer almasının qarşısını ABŞ alır. Vaşinqton da Türkiyənin Cənubi Qafqazda artan regional nüfuzunu qəbul etmir və belə bir platformaya qarşıdır. Çünki, Vaşinqton Türkiyənin regional gücə çevrilməsində maraqlı deyil.

Qeyd edim ki, G20 zirvəsində Türkiyə prezidenti R. T. Ərdoğan "Altılıq" platformasını ABŞ və Fransa prezidentləri ilə də müzakirə edib. Hər iki ölkənin belə bir platformanın Ankaranın birbaşa vasitəçiyi ilə yaradılmasını qəbul etməsə də, cənab T.R. Ərdoğan bununla Cənubi Qafqazda Türkiyənin artan təkbaşına regional bir nizamı formalaşdırmaq gücündə olduğu mesajını vermiş olur.

Qeyd edim ki, regionda "Altılıq" platformasının qurulması mümkün görünmür. "3+3" format əvəzinə "2+2" formatı ola bilər. Bu da "Zəngəzur" dəhlizi açıldıqdan sonra. "Zəngəzur" dəhlizinin açılması isə, Mərkəzi Asiya ölkələrinin də regionla əməkdaşlığı artar və Ankaranın vasitəçiyli ilə yeni bir iqtisadi əməkdaşlıq təşkilatı ayaradıla bilər. Ona görə də "Altılıq" platformasının yaradılması mümkün deyil. Bunun əvəzində,yeni bir iqtisadi əməkdaşlıq təşkilatı yaradıla bilər".

Müsahibimiz onu da deyib ki, Ermənistanla sərhədlərin delimitasiya və demarkasiyası prosesində 1920-ci illərin xəritələrinin əsas götürülməsi və sonrakı illərin xəritələrinə əsaslanması danışıqları uzada bilər: "Bununlada tərəflərin ortaq konsensusa gəlməsi mümkün olmayacaq. Rusiya da məhz SSRİ-nin xəritələrini ortaya atmaqla problemin davam etməsində maraqlı görünür. Ümumiyyətlə, Ermənistan çalışır ki, Azərbaycan ordusu sərhəddəki mövqelərindən geri çəkilsin və sərhəd məsələsi ilə paralel "status" məsələsini də gündəmə daşısın. Təbii ki, Yerevanın bu planları baş tutmayacaq. Azərbaycan sərhədlərin müəyyənləşməsini BMT-nin daxil olduğu sərhədlər çərçivəsində həllini masaya gətirməlidir".

Milli Məclisin deputatı Sahib Alıyev isə fərqli məqama toxunub. O bildirib ki, Rusiya və Ermənistanın xarici işlər nazirləri arasında dünənki telefon danışığı zamanı Güney Qafqazda əlverişli regional əməkdaşlıq, bütün nəqliyyat yollarının açılması, iqtisadi əlaqələrin bərpası, minalanmış sahələrin xəritəsinin verilməsi, savaşdan sonra tutulub saxlanılanların azad edilməsi, sərhəddəki insidentlərin danışıqlar yoluyula həlli məsələlərinə toxunulub. Onun fikrincə, bunlar yüksək səviyyədə keçirilməsi planlaşdırılan üçlü görüşə hazırlıqdan xəbər verir: "Ermənistanın Milli Təhlükəsizlik Xidməti rəisinin müavini Aram Hakopyanın Görus-Qafan yolunun Azərbaycandan keçən hissəsinin öz ölkəsinin vətəndaşlarının gediş-gəlişləri üçün tam problemsiz olduğunu vurğulaması da rəsmi İrəvanın hələlik konstruktivliyə kökləndiyini, daha dəqiqi kökləndirildiyini göstərir. Fəqət kökdən salınmaları ehtimalı da az deyil. Bu yöndə cəhdlər isə təəssüf ki, var. ABŞ, Fransa və İran Vətən savaşından sonra regionda yaranmış geosiyasi reallığı hələlik həzm etmək istəmirlər.



Əlbəttə, burada həlledici rolu ABŞ oynayır. ABŞ-ın Azərbaycanla Ermənistan arasında yeni geosiyasi reallığa uyğun sülh anlaşmasının bağlanmasına savaşdan bir il keçəndən sonra yanaşmasının dəyişib-dəyişmədiyi isə dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavinin yardımçısı Erik Olsonun noyabrın 2-də başlayıb 3 gün davam edəcək səfərindən sonra dəqiq biləcək.

Xatırladaq ki, Erik Olsonun rəhbərliyi altında ABŞ-ın Güney Qafqazın üç ölkəsindəki səfirlərinin İrəvanda birgə məsləhətləşmələri də keçirilməlidir. Deməkolar ki, bu qəbildən olan məsləhətləşmələr ənənəvi xarakter daşıyır və 2019-cu ildə Bakıda, 2018-ci ildə isə Tiflisdə keçirilmişdi. Amma bu dəfə onun da, Olsonun səfərinin də Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının keçirilməsi planlaşdırılan üçlü görüşü öncəsinə salınması düşündürücüdür. Və ola da bilər ki, bu səfərdən sonra Ermənistan rəhbərliyi yenidən öz ampluasına dönəcək.

Bununla yanaşı kimin hansı mövqedə olmasına baxmayaraq Zəngəzur dəhlizinin açılacağı artıq reallıqdır. Xarici təzyiqlərdən dolayı Azərbaycanla Ermənistan arasında sülh anlaşmasının bağlanmasının ləngidilməsinə gəldikdə isə bundan itirən ilk növbədə haylardır. Bu ilin statistikasına görə Rusiyaya ən çox miqrant axını baş verən ölkələrin ilk üçlüyündə demoqrafik depopulyasiyayla üzləşən, əhalisi elə də çox olmayan Ermənistanın yer alması faktı da bunu təsdiqləmirmi?".

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova keçirdiyi ənənəvi brifinqdə ölkəsinin Azərbaycan və Türkiyə prezidentlərinin irəli sürdüyü "altılıq platforması"nın ("3+3") yaradılması ideyasını dəstəklədiyini bir daha bəyan edib: "Əlbəttə, hesab edirik ki, bu planı praktik müstəviyə keçirməyin vaxtı gəlib çatıb. Çoxtərəfli regional əməkdaşlığın inkişafı bu əməkdaşlıq formatında nəzərdə tutulan bütün iştirakçıların maraqlarına cavab verir. Fikrimizcə, bu əməkdaşlıq mexanizminin həyata keçirilməsinə başlanılması dövlətlərarası münasibətlərdə etimadın yüksəldilməsinə, mövcud ziddiyyətlərin nizamlanmasına, regionun iqtisadi və nəqliyyat potensialının üzə çıxmasına kömək edər. Məsələlər çoxdur. Bu əməkdaşlıq formatı həm köhnə problemlərin, həm də yeni çağırışların həllinə kömək edə bilər və etməlidir". Super! Bəs onda Moskva İrəvanı niyə təlesdirmir? "Altılıq" formatı ona görə Rusiyanın maraqlarına cavab verir ki, regional məsələlərə ABŞ və Avropa İttifaqı qarışmasın. Elə biz də Vaşinqtonla Brüsselin Cənubi Qafqaza müdaxiləsini arzulamırıq. Müharibə dövründə verdikləri açıqlamaları unutmamışıq. Buna baxmayaraq, əgər Kreml "altılıq formatı"nın reallaşmasını istəyirsə, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasını təmin etməlidir. Bu olmadan "altılıq formatı" işləməyəcək".

***Z.Məmmədli***



## Azərbaycan və Ermənistan XİN başçıları yenidən görüşəcək

***Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin yeni görüşü yaxın zamanlarda baş tuta bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın xarici işlər nazirinin müavini Vaqe Qevorqyan söyləyib.

"Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan XİN başçılarının yeni görüşünün yaxın vaxtlarda keçirilməsi istisna olunmur. XİN danışıqlar prosesinin bərpası üzərində ardıcıl çalışır".

Vaqe Qevorqyan bu danışıqların köhnə formatda aparılacağını əlavə edib.

Nazir müavini Azərbaycanla Türkiyənin "3+3" təşəbbüsünə də cavab verib.

"Regional əməkdaşlıq formatı hazırda mövcud olan formatları təkrar etməməlidir. Region dəyişir və Ermənistan "3+3" formatı ilə yanaşı, digər əməkdaşlıq təklifləri də alır. Bütün təkliflər müzakirə olunur, amma "3+3" formatı ilə bağlı yekun qərar verilməyib".

## Binəli Yıldırım Zəngəzur dəhlizinin bölgə ölkələrinə faydasından danışdı

***Zəngəzurun dəhlizinin açılması istiqamətində çalışmalar davam edir.***

"Unikal"ın məlumatına görə, bunu Türkiyə Respublikasının keçmiş Baş Naziri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq sədri, millət vəkili Binəli Yıldırım "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumundan öncə jurnalistlərə açıqlamasında deyib.

B.Yıldırım bildirib ki, Bu dəhlizin açılması bütün region ölkələrinin daha çox əlaqələr qurmasına kömək edəcək. Zəngəzur dəhlizinin bütün bölgə ölkələrinə faydası var.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə carı ilin 4-6 noyabr tarixlərində "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçiriləcək. Sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqların iştirakı nəzərdə tutulur. Hibrid formatda təşkil ediləcək tədbirdə 300-ə yaxın qonağın canlı və onlayn qaydada qoşulacağı gözlənilir.

## 37 məktəbə Milli Qəhrəmanların adı verildi - SİYAHI



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının adlarının əbədiləşdirilməsi barədə müvafiq Qərar imzalayıb.***

"Unikal" xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın Milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə respublikanın müxtəlif şəhər və rayonlarındakı 37 məktəb və liseyə Azərbaycan Respublikasının Milli Qəhrəmanı və Vətən Müharibəsi qəhrəmanlarının adları verilib.

Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanlarına bu Qərardan irəli gələn məsələlərin həll edilməsinə dair tapşırıq verilib.

## Azərbaycan 3+3 formatını dəstəkləyir - Prezidentin köməkçisi

***"Azərbaycan 3+3 regional əməkdaşlıq formatının yaradılmasına dair tərəfdaşları ilə diplomatik vasitələrlə müzakirələri davam etdirir".***



"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev VIII Bakı Qlobal Forumundakı müzakirələr zamanı bildirib.

Onun sözlərinə görə, bu format regionda bundan sonrakı əməkdaşlığın istiqamətlərini müəyyənləşdirir: "Hazırda bununla bağlı diplomatik kanallarla təmaslar yürüdülür. Bütövlükdə, Azərbaycan bu prosesi dəstəkləyir. Həmin format əsasında müzakirələri davam etdirməklə regional əməkdaşlığın yeni platformunu yaratmağa hazırıq".

## "Azərbaycan pavilyonu maraqla qarşılanır" - Mikayıl Cabbarov

***"Beynəlxalq əməkdaşlıq və investisiya imkanlarını təşviq edən "Dubay EXPO-2020" (Expo 2020 Dubai) ümumdünya sərgisi davamlı inkişaf alətlərinin tədqimatı, biznesdə yeni istiqamətlər və etibarlı tərəfdaşlar qazanmaq üçün unikal platformadır".***

Unikal.org xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

"Heydər Əliyev Mərkəzinin (Heydar Aliyev Center) təşkilatçılığı ilə yaradılmış Azərbaycan pavilyonunda ölkə iqtisadiyyatının şaxələndirilməsi, insan kapitalına sərmayə yatırımı, dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi kimi qlobal sahələrdə əldə etdiyimiz nailiyyətlər maraqla qarşılanır", - o qeyd edib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcivani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

## Polad Həşimovun adı bu məktəbə verildi

***Xəbər verdiyimiz kimi, 37 məktəb və liseyə Milli Qəhrəman və Vətən Müharibəsi Qəhrəmanlarının adı verilib.***

Unikal.org xəbər verir ki, Sumqayıt şəhəri 28 nömrəli tam orta məktəbə "Azərbaycanın Milli Qəhrəmanı" Polad İsrayıl oğlu Həşimovun adı verilib.

# "Qətnamələrin icra olunmaması BMT-yə inamı azaldır" - Ceyhun Bayramov

***30 il ərzində Qarabağ münaqişəsi ilə bağlı qətnamələr yerinə yetirilmədi və bu da öz növbəsində BMT-yə olan etimadı azaldır.***



"Unikal"ın məlumatına görə, bunu xarici işlər naziri Ceyhun Bayramov Qlobal Bakı Forumu çərçivəsində "Post-COVID-19 dövründə qlobal çağırışlar" mövzusunda keçirilən panel müzakirələri zamanı deyib.

C.Bayramov bildirib ki, bu qətnamələr zamanında yerinə yetirilməli idi: "Bir sıra hallarda BMT-nin qətnamələri qısa zamanda yerinə yetirilir. Lakin 30 il ərzində münaqişə ilə bağlı qətnamələr yerinə yetirilmədi və bu da öz növbəsində BMT-yə olan etimadı azaldır."

Nazir əlavə edib ki, bu qətnamələrin yerinə yetirilməməsi sonunda münaqişənin hərbi-siyasi yolla həll edilməsinə səbəb oldu: "BMT qətnamələrinin səmərəli yerinə yetirilməsi mexanizmi təmin edilməlidir".

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə carı ilin 4-6 noyabr tarixlərində "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir.

Sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqların iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirdə 300-ə yaxın qonağın canlı və onlayn iştirakı gözlənilir.

# "Bütün ölkələr pandemiyaya qarşı mübarizədə birləşməlidirlər" - Şahmar Mövsümov

***İnkişaf etmiş ölkələrdə vaksinasiya 60-70 faizə qədər çatıb. İnkişaf edən ölkələrin bir çoxunda isə 10 faizə çatmayıb. Təbii ki, bu qeyri-bərabər, ədalətsiz yanaşmadır.***

"Unikal"ın məlumatına görə, bunu Prezidentin köməkçisi Şahmar Mövsümov "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumu çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, bu qlobal pandemiyadır, hansısa bir ölkə bunu bitirə bilməz, bütün ölkələr pandemiyaya qarşı mübarizədə birləşməlidirlər ki, bu tezliklə bitsin.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə carı ilin 4-6 noyabr tarixlərində "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir. Sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqların iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirdə 300-ə yaxın qonağın canlı və onlayn iştirakı gözlənilir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə carı ilin 4-6 noyabr tarixlərində "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirilir.

Prezident İlham Əliyev "COVID-19-dan sonrakı dünya" mövzusunda VIII Qlobal Bakı Forumunun açılışında çıxış edib.



Sayca 8-ci olan Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqların iştirak edirlər.

# Koronavirusa yoluxanların sayı açıqlandı - 29 nəfər öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 706 yeni yoluxma faktı qeydə alınıb, 1 937 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 539 710 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 501 508 nəfər müalicə olunaraq sağalıb, 7 182 nəfər vəfat edib, aktiv xəstə sayı 31 020 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 350, ötən müddət ərzində isə ümumilikdə 5 243 038 test aparılıb.

# Peyvənd olunanların sayı açıqlanıb

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 45 041 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 6 583, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 9 746, buster doza üzrə vaksinasiya olunanların sayı isə 28 712 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 9 798 866, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 4 980 307, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 406 811, buster doza üzrə vaksinasiya olunanların sayı isə 411 748 təşkil edir.

# Azərbaycan Prezidentindən mühüm mesajlar

## İlham Əliyev: “Biz müharibə haqqında danışmaq yox, sülh haqqında, gələcək haqqında danışmaq fikrindəyik”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də “COVID-19-dan sonrakı dünya” mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb.***

Qeyd edək ki, sayca 8-ci olan və noyabrın 6-dək davam edəcək Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulub.

Tədbir çərçivəsində keçirilən panel iclaslarda “COVID-19-dan sonra yaranan yeni dünya nizamı”, “Yeni dünya iqtisadiyyatı”, “Yeni dövrdə sülh, təhlükəsizlik və insan hüquqları”, “İqlim dəyişikliyi ilə mübarizə və qlobal enerji tələbatının qarşılanması”, “Səhiyyə və insanların peyvənd edilməsi”, “Qida və qida təhlükəsizliyinin təşviqi”, “Gənclər danışır, biz dinləyirik”, “Şərq tərəfdaşlığı və onun imkanları” mövzularında, həmçinin Avropa İttifaqı, Balkan regionu və Cənubi Qafqazdakı vəziyyətə dair müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxış edib. Ölkə başçısı mühüm məqamlara toxunub.

O bildirib ki, Cənub Qaz Dəhlizi layihəsinin başa çatdırılması Azərbaycan üçün, qonşularımız üçün, Avropa üçün tarixi nailiyyət oldu. Çünki bu, Avropa enerji təhlükəsizliyinin mühüm faktorudur, şaxələndirmə alətidir.

Dövlət başçısı deyib ki, bu ilin 10 ay ərzində Azərbaycan bu marşrutla Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan və Bolqarıstana 14 milyard kubmetrdən çox çatdırıb. Bu həcmin demək olar ki, yarısı Avropa İttifaqının istehlakçıları tərəfindən istifadə olunub. “Azərbaycan qazının çatdırıldığı ölkələrdə qaz qiyməti böhranı yoxdur və heç kim soyuqdan donmayıb. Bu bir daha onu göstərir ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir”, - deyə Prezident İlham Əliyev qeyd edib.

”Pandemiya qlobal gündəlikdə bir nömrəli məsələdir. Biz pandemiya, postpandemiya dövrü haqqında danışdıq. Hətta tam aydın deyil biz postpandemiya dövrünə qədəm qoymuşuq, yoxsa yox. Çünki müxtəlif ölkələr fərqli yanaşmalar sərgiləyir” -deyən Dövlətimizin başçısı qeyd edib ki, bu xəstəliyin başladığı ilk günlərdən etibarən Azərbaycan həm daxildə, həm beynəlxalq səviyyədə çox fəal işlədi. “Biz regionda ilk ölkələrdən biri idik ki, yaşı 18-dən yuxarı olan əhalisinin təxminən yarıdan çoxunu - 60 faizini iki doza peyvənddən keçirə bildik. Biz 13 yeni dövlət xəstəxanası açdıq. Demək olar ki, 4 minə yaxın çarpayı potensialı ilə bu təsisatlar hazırda pandemiyadan əziyyət çəkən çox sayda insanlara xidmət göstərir və indi pandemiya nəzarət altındadır”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, Azərbaycan xalqı yaxın günlərdə bizim tarixi qələbəmizi qeyd edəcək. “Hazırda biz azad edilmiş əraziləri bərpa edirik. Genişmiqyaslı dövlət proqramı artıq həyata keçirilməyə başlayıb. Biz müharibə haqqında danışmaq yox, sülh haqqında, gələcək haqqında danışmaq fikrindəyik. Biz təklif etdik ki, sərhədlərimizin delimitasiyası və demarkasiyasına başlayaq. Əfsuslar olsun ki, bu məsələ də öz cavabını tapmayıb. “Biz gələcəyə nəzər salmalıyıq. Mənə elə gəlir ki, hər bir şey Ermənistanın mövqeyindən asılı olacaq”, - deyə dövlət başçısı vurğulayıb.

“Bütün bu forumlarda mən Ermənistan-Azərbaycan arasındakı münaqişə məsələsini qaldırıram və bu gün bildirmək istəyirəm ki, münaqişə həll olunub” - deyən Dövlət başçısı bildirib ki, Azərbaycan özü münaqişəni həll edib: “Azərbaycan özü BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi - hansı ki, qeyd-şərtsiz və dərhal erməni qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını tələb etdiyi qətnamələri həyata keçirdi. Təəssüflər olsun ki, 27 il ərzində bu qətnamələr kağız üzərində qalırdı. Azərbaycan özü öz ərazi bütövlüyünü bərpa etməsəydi növbəti 27 il ərzində də həmin qətnamələr kağız üzərində qalardı. Biz BMT xartiyasının 51-ci maddəsinə istinad edərək öz müdafiə hüququmuzdan istifadə edərək beynəlxalq hüquq çərçivəsinə arxalanaraq bundan istifadə etdik. Çünki nəinki BMT-nin Təhlükəsizlik Şurası, o cümlədən digər beynəlxalq təsisatlar da oxşar qərar və qətnamələri Azərbaycan ərazilərinin işğalı ilə bağlı qəbul etmişdilər”.




***İnformasiya şöbəsi***

# Azərbaycanda azad zonanın yaradılması ilə bağlı tədbirlərə başlanılıb

***Hazırda dünyanın 70 ölkəsində xırdabuynuzlu heyvanlar arasında yayılan taun xəstəliyi ilə bağlı mübarizə tədbirləri həyata keçirilir.***

Unikal.org xəbər verir ki, bu xəstəlik qoyun və keçilərin 80%-dən çoxunun cəmləşdiyi və əsas gəlirləri xırdabuynuzlu heyvanların saxlanılmasından əldə edən regionlarda hər il 1,5-2 milyard dollar dəyərində itkiyə səbəb olan yoluxucu xəstəlikdir. Xəstəlik insanlara yoluxmasa da, ciddi iqtisadi itkilərə səbəb olur və vəhşi təbiətdə yaşayan heyvanların da məhv olunması ilə nəticələnir.

Eyni zamanda xırdabuynuzlu heyvanların taunu xəstəliyi heyvan mənşəli məhsulların ölkələrarası dövriyyəsinə də maneəçilik yaradır.

Xırdabuynuzlu heyvanların taunu xəstəliyi Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) Transsərhəd heyvan xəstəliklərinə mütərəqqi nəzarət üzrə Qlobal Çərçivəsinin (GF-TADs) 5 illik fəaliyyət planında göstərilən prioritet xəstəliklərindən biridir və 2030-cu ilə qədər dünyada ləğv olunması nəzərdə tutulur.

Qeyd edək ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına (OIE) üzv ölkələr öz ərazisinin xırdabuynuzlu heyvanların taunu xəstəliyindən azad olmasının OIE tərəfindən rəsmi tanınması və xəstəlik üçün milli nəzarət proqramının təsdiqi ilə bağlı müraciət etmək imkanına malikdirlər.

Ölkəmizdə də heyvan xəstəliklərindən azad zonanın yaradılması ilə bağlı işlərə başlanılmış və bu sahədə müvafiq tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlər çərçivəsində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Texniki Əməkdaşlıq Proqramı çərçivəsində 10-12 noyabr 2021-ci il tarixlərində FAO Baş qərargahının iki ekspertinin Azərbaycana səfəri baş tutacaq. Səfər çərçivəsində ökəmizin xırdabuynuzlu heyvanlar arasında taun xəstəliyindən azad elan olunması ilə bağlı sənədləşdirilmə işləri, Azərbaycan hökuməti tərəfindən hazırlanan müvafiq sənədlərin tamamlanmasına texniki dəstək göstərilməsi nəzərdə tutulur. Həmçinin Agentlik tərəfindən heyvan sağlamlığı və qida təhlükəsizliyi üçün xırdabuynuzlu heyvanların taunu xəstəliyi təhlükəsi mövzusunda maarifləndirmə işləri aparılacaq və xəstəlikdən rəsmi azad ölkə statusunun əldə olunması ilə bağlı zəruri tədbirlər həyata keçiriləcək.

# Azərbaycan-İran sərhədində insident: Atəş açıldı

***Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər qaçaqmalçılıq fəaliyyətləri ilə mübarizə sahəsində zəruri tədbirlər davam etdirilir.***

DSX-dən Unikal.org-a bildirilib ki, oktyabr ayının 29-da saat 11:10 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Füzuli rayonunun Qazaxlar kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq qanunsuz yolla Azərbaycan Respublikasından İran İslam Respublikasına keçməyə cəhd edərkən 1 nəfər Azərbaycan vətəndaşı 1994-cü il təvəllüdlü Rüstəmov İsrayıl Ənvər oğlu sərhəd pozucusu qismində saxlanılmışdır.

Həmin gün saat 21:30 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin Cəlilabad rayonunun Sərxanlı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sahibsiz halda aşkar edilmiş 1 ədəd bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 12 kiloqram 635 qram narkotik vasitəyə bənzər maddə aşkar olunaraq götürülmüşdür.

Oktyabr ayının 30-da saat 11:15 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 2 nəfər naməlum şəxsin Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfindən aşkar olunmuşdur. Sərhəd zastavası dərhal “Silaha” komandası üzrə qaldırılmış, xidməti ərazi qapa dılmış, sərhəd naryadının “Dayan” əmrinə tabe olmayan sərhəd pozucuları havaya xəbərdarlıq atəşindən sonra saxlanılmışlar. Qeyd olunan şəxslərin Azərbaycan Respublikası vətəndaşları Xaçmaz rayon sakini 1997-ci il təvəllüdlü Fərmanlı Mehman İlqar oğlu və Bakı şəhər sakini 1989-cu il təvəllüdlü Sadıqov Tərlan Heybət oğlu olmaları müəyyənləşdirilmişdir.

Həmin gün Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Şəmkir” sərhəd dəstəsinin Qazax rayonunun İkinci Şıxlı kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində Gürcüstandan Azərbaycana Kür çayında çəlləyin içərisində ötürülmüş qaçaqmal predmeti olan 20 qutu (339 blok) “Demi Wolf” markalı pirotexniki vasitələr aşkarlanaraq götürülmüşdür.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Vasif Talıbov nazir qudasını işdən çıxardı

***Naxçıvanın Daxili işlər naziri, general-leytenant Fazil Nəriman oğlu Ələkbərov vəzifəsindən azad edilərək təqaüdə göndərilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Vasif Talıbov sərəncam imzalayıb.

Qeyd edək ki, F.Ələkbərov Vasif Talıbovun qudasıdır.

***Murad İbrahimli***

# Kambocanın Baş nazirindən İlham Əliyevə təbrik

***Kamboca Krallığının Baş naziri Hun Sen Azərbaycan Prezidenti İlham Əliyevi 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik edib.***

"Unikal"ın məlumatına görə, təbrikdə deyilir:

"Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə Zati-aliləri, Kamboca Xalq Partiyası adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə Yeni Azərbaycan Partiyası və Azərbaycan davamlı şəkildə inkişaf edəcək, qarşıdakı illərdə qonşu ölkələrlə dayanıqlı sülh əsasında yaxşı əməkdaşlıq əlaqələrinə malik olacaq.

Mən Yeni Azərbaycan Partiyası ilə Kamboca Xalq Partiyası arasında xüsusilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) və Mərkəzçi Demokrat İnternasionalı (CDI) çərçivəsində uzunmüddətli əlaqələrdən, eləcə də ölkələrimizin hökumətlərinin son zamanlar davamlı olaraq inkişaf edən yaxın əməkdaşlığından məmnunam.

İnanıram ki, qarşılıqlı səylərimiz sayəsində partiyalarımız və ölkələrimiz arasındakı dostluq, faydalı əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı, habelə regionumuzda və onun hüdudlarından kənarda sülh və tərəqqi naminə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Zati-aliləri, xahiş edirəm, Sizə olan ən yüksək ehtiramımı, möhkəm cansağlığı və nəcib işlərinizdə böyük uğurlar arzularımı qəbul edin".

# Nazir ölkədə internetin vəziyyətindən danışdı

***Bu gün ölkədə əsas problemlərdən biri internetin dayanıqlı və davamlı olmamasıdır.***

Bakıvaxtı.az xəbər verir ki, bunu "Qələbənin ilk ildönümü: Zəfər iqtisadiyyatının rolu və hədəfləri" adlı konfransda çıxışı zamanı rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib.

O bildirib ki, bununla bağlı müxtəlif regionlardan şikayətlər daxil olur: "Hazırda ölkəmizdə İT infrastrukturu iqtisadi potensialımızı tam şəkildə realizə etməyə imkan vermir. Bununla bağlı cənab Prezindetin tapşırığı var. 2024-cü ilin sonuna qədər respublikada genişzolaqlı internetlə təmin edilməmiş şəhər qalmayacaq".

# "Növbəti böhrana hazırlaşmalıyıq" - ÜST-nin Baş direktoru

***"ÜST-nin məqsədi bu il ərzində bütün dünya ölkələrində əhalinin ən azı 40 faizinin peyvənd olunmasıdır".***

"Unikal"ın xəbərinə görə, bu fikirləri Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COVID-19-dan sonrakı dünya" mövzusunda keçirilən Qlobal Bakı Forumuna göndərdiyi videomüraciətində deyib.

"Biz bundan sonra da növbəti böhrana hazırlaşmalıyıq. Bizim səhiyyə sistemlərimiz daha müvafiq olmalıdır. Ən zəngin və inkişaf etmiş dövlətlər belə bu xəstəlikdən qorunmayıb. Bu pandemiya bir daha göstərdi ki, sağlamlıqla bağlı olan məsələ həmişə diqqət mərkəzində olmalıdır. Biz səhiyyəyə, ilkin xidmətlərə ayrılan vəsaitləri artırmalıyıq. Biz qlobal çərçivədə xüsusi maliyyə çərçivəsi yaratmalıyıq", - o bildirib.

# "2022-ci ilin büdcəsi də sosialyönümlü olacaq"

## Musa Quliyev: "Təklifimiz odur ki, ən azı 20 faiz və daha yüksək imkanlar daxilində maaşlar, pensiyalar, təqaüdlər və müavinətlər qaldırılsın"

***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Unikal" qəzetinə müsahibə verib. O, gələn ilin büdcə layihəsi və digər sosial-iqtisadi məsələlərlə bağlı fikirlərini bildirib.***

***-Musa müəllim, noyabrın 10-dan sonra 2022-ci ilin büdcə zərfinin müzakirələrinə başlanılacaq. Qiymət artımları fonunda maaş və pensiyaların neçə faiz artacağı gözlənilir?***

-Hələlik konkret bir rəqəm söyləmk olmaz. İl ərzində təxminən 7-8 faiz inflyasiya olub. Həmçinin bəzi sahələrdə qiymət artımları da olub. Xüsusilə O cümlədən qanunvericiliyə görə, özəl sektor minimum əmək haqqından aşağı maaş verə bilməz. Özəl sektorda çalışanların da əmək haqqında artım olacaq. Bütün bunlar hamısı bizim həm icmal büdcəsində, həm də dövlətin büdcəsində nəzərdə tutulub.

***-Uşaq pulunun bərpa olunması məsələsi ən çox müzakirə olunan məsələlərdən biridir. Növbəti ilin büdcəsində bu məsələnin müzakirəyə çıxarılması gözlənilirmi?***

-Hesab edirəm ki, indiki büdcədə bu məsələnin müzakirəsi olmayacaq. Uşaq pulu müavinəti verilən müavinətlər-statusu ilə bağlı müəyyən məsələlər var ki, onlara yenidən baxılması lazımdır. O cümlədən şəhid adının əbədiləşdirilməsi ilə bağlı məsələlər də var. Bizə də çox müraciət olur. Yəqin ki, hökumətdə də bu müzakirələr gedir. Yaxın vaxtlarda qərarlar olar. Bu məsələlər hökumətin diqqətindədir.

***-Sizin komitədə şəhid ailələri, Qarabağ əlillərinə göstərilən sosial müdafiə tədbirləri və problemlərlə bağlı dinləmə keçiriləcək. Bu dinləmə nə zaman olacaq və hansı məsələlərin müzakirəsi nəzərdə tutulub?***

-Büdcə müzakirələrindən sonra mütləq bu dinləmə olac-



kommunal xərclərdə artım baş verib. Hər bir büdcə vətəndaşın sosial rifah halını daha da yaxşılaşdırmaq niyyəti ilə qəbul olunur. Hesab edirəm ki, 2022-ci ilin büdcəsi də sosialyönümlü olacaq. Təklifimiz odur ki, ən azı 20 faiz və daha yüksək imkanlar daxilində maaşlar, pensiyalar, təqaüdlər və müavinətlər qaldırılsın. Müzakirələrin gedişi, hesablamalar və tənzimləmələr nəzərə alınaraq ola bilər ki, artım 30-40 faiz, bəzi sahələrdə isə daha yüksək ola bilər. Bunu hazırda konkret demək olmaz. Bu məsələ ilə bağlı büdcə müzakirələri nəticəsində qərar qəbul olunacaq.

***-Yəqin ki, növbəti ilin büdcəsi də sosialyönümlü olacaq...***

-Əlbəttə, sosial paket genişlənəcək. Əmək haqqı artımı nəzərdə tutulur. Həmçinin, minimum əmək haqqının da artımı planlaşdırılır. Minimum əmək haqqı artırsa, ona uyğun olaraq vahid tarif cədvəlinə görə bütün əmək haqlar artacaq. dən biridir. Sovet dönəmində bütün uşaqlara verilirdi. Müstəqilliyimizin ilk illərindən başlayaraq 2006-cı ilə qədər isə yalnız aztəminatlı ailələrin uşaqlarına verildi. İndi isə uşaqlarla bağlı 13-ə yaxın müavinət var. Yenə də aztəminatlı ailələrin uşaqlarına uşaq pulu verilir. Həmçinin 13 istiqamətdə uşaqlarla bağlı müavinət növü vardır. O cümlədən həqiqi hərbi xidmətdə olanların, şəhid uşaqları ilə bağlı, valideyn himayəsini itirimiş, əlliyi olan uşaqlarla əlaqədar, uşağın doğulması, 3 yaşa qədər uşağa baxmaqla bağlı və yaxud 1 yaşa qədər ayrı bir müavinətdir. Bunların hər birini saysaq, 13-ə qədər müavinət var.

***-Sizin şəhid anası ordeninin təsis edilməsi ilə bağlı təklifiniz var idi. Bu məsələni Milli Məclisin növbəti iclaslarında səsləndirəcəksizmi?***

-Bəli, bunu parlamentdə səsləndirəcəyik və hökumətə də müraciətimiz olacaq. Şəhid aq. İndiyə qədər göstərilən dövlət qayğısı, cəmiyyətin münasibəti və onların problemləri araşdırılacaq ki, hansı problemlər önə çəkilməlidir. Bu məsələlər qiymətləndiriləcək. Demək olmaz ki, şəhid ailələri və qazilər diqqətdən kənardadır. Dövlətin böyük qayğısı var. Cənab Prezidentin şəxsən onlara münasibəti hər kəsə aydındır. Onların mənzil, avtomobil, pensiya təminatı, sığorta və təqaüdləri ödənilir. Bunlar hamısı yüksək səviyyədə həyata keçirilir. Amma müəyyən problemlər var ki, onların həlli üçün zaman tələb olunur. Məsələn, qazilərin müəyyən qisminin ekspertiza olunub əlillik dərəcələrinin müəyyən olunması, veteran adının verilməsi. Yəqin, bu ilin sonuna qədər bu problemlər də öz həllini tapacaq. Cəmiyyətin də, dövlətin də onlara münasibəti birmənalıdır, yüksəkdir və hər birimiz onlara borcluyuq.

***Anar Kəlbiyev***

# Səlim Müslümovla bağlı böyük müəmma...

## Sabiq nazir mənimsədiyi pulları qaytaracaqmı?

***Bu ilin sentyabrında sabiq əmək və əhalinin sosial müdafiəsi naziri, hazırda həbsdə olan Səlim Müslümovun barəsində olan həbs qətimkan tədbirinin müddəti növbəti dəfə uzadıldı. Belə ki, Səbail Rayon Məhkəməsində S.Müslümovun həbs müddətinin uzadılması ilə bağlı istintaq orqanının vəsatətinə baxılıb.***

Məhkəmədə vəsatət təmin edildi və Səlim Müslümov barəsində olan həbs qətimkan tədbirinin müddəti daha 3 ay uzadıldı.

Xatırladaq ki, Müslümov bu ilin fevralında həbs olunub.



Onun əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsində işlədiyi müddətdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsinin təşkil edilməsi, işəgötürənlərin əmək, məşğulluq və sosial müdafiə məsələləri ilə bağlı fəaliyyətlərinə dövlət nəzarətinin həyata keçirilməsi və digər səlahiyyətlərin yerinə yetirilməsi zamanı çoxsaylı sui-istifadə hallarına yol verməsinə dair faktlar DTX-də araşdırılıb. Nəticədə o, Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü maddələri (təkrar külli miqdarda rüşvət alma) ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İstisna edilmir ki, bu ilin sonunda, ya da gələn ilin əvvəllərində onun barəsində olan istintaq yekunlaşdırılsın və ek-nazirin qanunsuz əməllərinə dair toplanmış materiallar hüquqi qiymətini alması üçün məhkəməyə göndərilsin.

Cəmiyyəti isə hazırda bir sual düşündürür.

Məsələ burasındadır ki, 2013-cü ildən 2018-ci ilin aprelinə kimi əmək və əhalinin sosial müdafiəsi naziri postunu tutan Səlim Müslümovun böyük yeyintilərinin üzə çıxdığı haqda çox ciddi mənbələrdən verilən xəbərlər vardı. Bildirilirdi ki, Sahil Babayev əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsinə təyin olunar-olunmaz adıçəkilən nazirlikdə ciddi kadr islahatlarına start verməklə yanaşı, Səlim Müslümovun zamanında yol verilən nöqsanların, yeyinti faktlarının araşdırılması ilə bağlı xüsusi tapşırıq verib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsaitin yoxa çıxmasının da məhz həmin yoxlamalar nəticəsində üzə çıxdığı iddia olunurdu. Bu barədə yerli mətbuatda hələ Müslümov həbs olunmamışdan öncə dərc edilən yazıların birindən sitat: "Uzun illər boyu qurulmuş mexanizm əsasında yoxa çıxarılan məbləğ 2 - 2,5 milyard manata yaxındır. Bildirilir ki, artıq ölkə rəhbərliyinə bununla bağlı zəruri bilgilər verilib. Bu isə öz növbəsində, Səlim Müslümovun durumunu bir xeyli ağırlaşdıra, hətta sonda onun həbsi ilə nəticələnə bilər. Çünki ortada kifayət qədər ciddi ittihamlar, daha dəqiq desək, 2 - 2,5 milyard manatlıq yeyinti faktı mövcuddur. Ümumiyyətlə, Dövlət Sosial Müdafiə Fondunda mənimsəmə, maliyyə qanunsuzluqları ilə bağlı faktlar Hesablama Palatası və hüquq-mühafizə orqanları tərəfindən zaman-zaman üzə çıxarılıb. Hesablama Palatasının açıqladığı məlumatlardan aydın olur ki, sözügedən fondun müxtəlif şöbələrində məcburi dövlət sosial sığorta haqları üzrə proqnozların tam icra edilməməsi, sahibkarlıqla məşğul olan fiziki şəxslər üzrə məcburi dövlət sosial sığorta haqlarının, maliyyə sanksiyalarının hesablanılmasının düzgün həyata keçirilməməsi, əsas fəaliyyət növünün düzgün uçota alınmaması, fiziki şəxslərlə hesablaşmaların düzgün aparılmaması səbəbindən məcburi dövlət sosial sığorta haqlarının az hesablanması faktları qeydə alınıb.Bundan əlavə, aşkarlanan faktlar arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə sosial sığorta nömrələrinin verilməməsi və ya verilmiş sosial sığorta nömrələrinin fərdi uçot bazasına işlənilməməsi səbəbindən yığım hesabına toplanmış vəsaitin müvafiq hesabatlara daxil edilməməsi, şöbələr tərəfindən əmək pensiyalarının təyin edilməsi üçün sənədlərin qəbulu, baxılması və pensiya məbləğinin hesablanılması prosesində qanunvericiliyin tələblərinə tam əməl olunmaması, işləməyən əlil kimi əmək pensiyasını tam məbləğdə alan, lakin faktiki sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə və fiziki şəxslərin işçilərinə artıq pensiya ödənilməsi kimi hallar var".

Vaxtilə KİV-də yer alan bu cür iddialar Səlim Müslümovun həbsindən sonra yayılan rəsmi məlumatlarla təsdiqini tapdı. Üstəlik, sabiq nazirin proqnozlaşdırılan həbsi də reallaşdı. Yuxarıda bəhs etdiyimiz və cəmiyyəti düşündürdüyünü vurğuladığımız sual isə budur: Müslümov vəzifədə ikən mənimsədiyi pulları geri qaytaracaqmı?

Yeri gəlmişkən, ötən həftə Bakı Ağır Cinayətlər Məhkəməsində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirildi. Bununla bağlı yayılan məlumatda vurğulanırdı ki, Sultanov özü barəsində ittihamda göstərilən 6 milyon manata yaxın zərəri ödəyib.

Elə isə başqa bir sabiq məmur - Səlim Müslümov nə üçün oxşar addımı atmasın? Keçmiş nazir bununla cəzasını müəyyən qədər yüngülləşdirə, eyni zamanda onun özü və əməlləri barədə cəmiyyətin haqlı və kəskin qəzəbini bir az da olsa yumşalda bilər...

***Sənan Mirzə***

# İntizam komissiyasından Cavanşir Feyziyevlə bağlı AÇIQLAMA



***"Deputatların fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə müxtəlif informasiyalar gündəliyə gəlir".***

Bunu Unikal.org-a açıqlamasında Milli Məclisin İntizam komissiyasının sədr müavini, deputat Fəzail Ağamalı deyib.

Sədr müavini bildirib ki, bu informasiyaların dəqiqliyini müəyyənləşdirmək üçün müvafiq qurumlar var:

"Əgər ciddi xarakter daşıyırsa, o araşdırılır və müvafiq addımlar atılır. Cavanşir Feyziyevlə bağlı deyilən bu fikirlərin nə dərəcədə həqiqət olub-olmadığı bizə bəlli deyil. Nəzərə alsaq ki, o məsələ gündəliyə gələndə Cavanşir Feyziyevə yaxın olan adamlardan biri bunun adi prosedur qaydası olduğunu önə çəkdi, hər hansı bir problemin olmadığını diqqətə çatdırdı. Ona görə də sosial şəbəkələrdə Milli Məclisin deputatı haqqında gedən bu məlumatları Milli Məclisin İntizam komissiyasında qaldırmaq məsələsi qanunvericiliyə uyğun deyil. Bunun üçün gərək rəsmi şəkildə Milli Məclisin rəhbərliyinə müraciət oluna. Müraciət olnduqdan sonra parlamentin rəhbərliyi bu məsələni araşdırırlar və qərar qəbul edirlər. Ya onu İntizam komissiyasına göndərirlər, ya da həqiqəti əks etdirmədiyinə görə kənara qoyulur. Ona görə də Cavanşir Feyziyev haqqında gedən bu məlumatlarla bağlı İntizam komissiyasına hər hansı məlumat daxil olmadığına görə, onun müzakirəsi mümkün deyil".

Xatırladaq ki, Böyük Britaniyada Milli Məclisin deputatı Cavanşir Feyziyevin ailə üzvlərinin 15 milyon funt sterliq (20,5 milyon dollar - 35 milyon AZN) yatırılan hesabları nəzarətə götürülüb.

Bu barədə Mütəşəkkil Cinayətkarlıq və Korrupsiya Hesabatı Layihəsi beynəlxalq təşkilatının (OCCRP) yaydığı məlumatda bildirilir. Qeyd olunur ki, bu vəsaitin üzərinə həbs qoyulması ilə bağlı Britaniya Milli Cinayət Agentliyi vəsatət qaldırıb. Şübhəli pullar Cavanşir Feyziyevin həyat yoldaşı Pərvanə Feyziyevanın (7,86 milyon f.s.), oğlu Orxan Cavanşirin (6,4 milyon f.s.) və yaxın qohumu Elman Cavanşirin adına olan bank hesablarındadır.

Məqalədə qeyd edilir ki, C.Feyziyev yaradığı iki dərman kompaniyasına Azərbaycan Laundarmartından 138 milyon dollar pul alıb.

***Anar Kəlbiyev***

# "Paşinyanı həbs edəcəyimi vəd edirəm" - Erməni deputat



***"44 günlük müharibənin araşdırılması üzrə komissiyanın işinin nəticələri Baş prokurora göndərilməlidir".***

Unikal.org erməni KİV-ə istinadən xəbər verir ki, bu sözlri "Hayastan" fraksiyasının üzvü Artur Qazinyan parlamentin iclasında deyib.

"Təbii ki, bu, iqtidaryönlü deputatlarda müəyyən təşviş yaratdı. Dedim ki, qapalı məruzə ilə yanaşı, açıq məruzə də verilsin, hökumətin müharibə zamanı verdiyi qərarlar ətraflı şəkildə təqdim olunsun. Nəticə belə oldu ki, daimi, anlaşılmaz seçki, seçilməmə, sirkə çevrilmə prosesi başladı. Aydın oldu ki, bizim gündəm onlar üçün məqbul deyil", - deyə müxalifətçi deputat bildirib.

O, sonda bu cinayətlərin peşəkar, ixtisaslaşmış müstəntiqlər tərəfindən hüquqi müstəvidə araşdırılmasının, cinayət məsuliyyətinə cəlb olunmasının tərəfdarı olduqlarını vurğulayıb.

"Komissiyanın işinin nəticəsi, faktiki məlumatlar Baş prokurora göndərilməlidir. Həmkarlarımıza faktları təqdim edəcəyimi, Nikol Paşinyanı həbs edəcəyimi vəd edirəm. Milli Məclisin Müdafiə və Təhlükəsizlik daimi komissiyasındakı dostlarımın işinin bir əsas məqsədi var - həmin faktları tapıb Baş prokurora təqdim etmək. Biz bu yolla qətiyyətlə gedəcəyik", - Artur Qazinyan ifadə edib.

***Gülayə Mecid***

## İƏT-dan Azərbaycana Zəfər Günü təbriki




***İslam Əməkdaşlığı Təşkilatı (İƏT) Azərbaycanı 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik edir, 44 günlük Vətən müharibəsində həlak olmuş bütün şəhidlərin xatirəsini ehtiramla yad edir.***

"Unikal" xəbər verir ki, bu barədə İƏT-in Baş katibliyinin açıqlamasında bildirilir.

"İƏT Azərbaycanla Ermənistan arasındakı münaqişənin təşkilatın, habelə BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun şəkildə həllini dəstəkləyib. Baş katiblik bir daha Ermənistanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına hörmət etməyə, hər hansı ərazi iddiaları irəli sürməməyə çağırır", - açıqlamada deyilir.

Bununla yanaşı, İƏT-in Baş katibliyi azad edilmiş ərazilərdə azərbaycanlı məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli qayıdışını təmin etmək üçün Azərbaycan hökumətinin gördüyü bərpa işlərini alqışlayıb, təşkilatın bütün üzv ölkələrini, beynəlxalq birliyi bu məsələdə yardım və dəstək göstərməyə çağırıb.

## "Zəfər yolu" layihəsinin təqdimatı olub

***Bakı Ali Neft Məktəbində (BANM) "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçığı və Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə Zəfər bayramının 1-ci il dönümünə həsr olunmuş "Zəfər yolu" layihəsinin təqdimatı keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə BANM-in professor, müəllim, tələbə heyəti, Şəhid və qazi ailələri, Ombudsman Səbinə Əliyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, millət vəkilləri, KİV və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbirdə xalqımızın erməni işğalçılarına qarşı mübarizəsindən bəhs edən "Zəfər yolu" filmi də təqdim edilmiş, həmçinin "Vətənim Azərbaycandır!" adlı esse yazı müsabiqəsin qalibləri mükafatlandırılıb.

Tədbir iştirakçılarını salamlayan BANM-nin rektoru Elmar Qasımov bildirdi ki, qələbəmiz Azərbaycan xalqının tarixində şanlı bir səhifə açmış, şəhidlərimizin qanı bahasına qazanılan bu zəfərin gənclərimiz tərəfindən qorunmasının vacibliyi vurğulanıb.

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün qəhrəmanların ruhunun şad olduğunu bildirmiş, bu mübarizədə hər bir şəhidin öz rolu və haqqı olduğunu qeyd edib.

Milli Məclisin vitse-spikeri Adil Əliyev qəhrəmanlıqla dolu zəfər tariximizdən bəhs etmiş, gənclərimizi qəhrəmanlardan örnək almağa səsləmib.

"Vətən Müharibəsi Qəhrəmanı" XTQ baş giziri Camal İsmayılovun anası Filarə xanım bütün şəhidlərin qəhrəman olduqlarını bildirmiş, onlarla daima qürur duyduğunu qeyd edib.

Tədbir Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin çıxışı ilə davam edib.

## DTX-dən əməliyyat: Vəzifəli şəxs həbs edildi

***Müasir İncəsənət Muzeyinin müdiri Xəyyam Abdinov DTX tərərfindən saxlanılıb.***

Unikal.org musavat.com-a istinadən xəbər verir ki, Xəyyam Abidinovun barəsində Səbail rayon məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilib.

Redaksiyamız Xəyyam Abdinovun cinayət əməllərinin mahiyyəti barədə məlumat əldə etdiyi təqdirdə əlavə məlumat təqdim ediləcək.

Bildirib ki, Xəyyam Abidinov həbs olunmazdan bir neçə gün öncə işdən çıxarılmışdır.

Xəyyam Abidinov mədəniyyət və incəsənət aləmində böyük nüfuza malik bir şəxs olub və onun fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilib. Musavat.com bildirir ki, görünür, onun ciddi qanunazidd əməli olub ki, barəsində bu cür sərt tədbir görülüb.

## İcra başçısı koronavirusa yoluxdu

***Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev yeni növ koronavirusa (COVİD-19) yoluxub.***

Unikal.org xəbər verir ki, icra başçısı bir neçə gündür virusa yoluxub, vəziyyəti yaxşıdır.

# Nazim İbrahimov həbsin bir addımlığında...

## Sabiq komitə sədrinin başı üstünü yenidən "qara buludlar" alır

***Ötən həftə Bakı Hərbi Məhkəməsində sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşdı. Sabiq general 10 il həbs cəzası aldı.***

Öncə onu xatırladaq ki, son məhkəmə iclaslarından birində isə təqsirləndirilən şəxsin vəkili Taleh İbrahimov müdafiə çıxışında Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun həbsini istədi. Sitat: "Nazim İbrahimov indiyə qədər 5 dəfə ifadə verib. O, 4 ifadəsində Rövşən Əkbərovun adını çəkməyib. 2021-ci ildə verdiyi ifadəsində qeyd edib ki, hadisə vaxtı Ukraynaya gedib və orada işi araşdıran zaman Rövşən Əkbərovla görüşüb. Guya ki, Rövşən Əkbərov Elçin Əliyevi öldürdüyünü Nazim İbrahimova deyib. Yaxşı deyibsə, indiyə qədər bu adam cinayəti niyə hüquq-mühafizə orqanlarına deməyib? Onun barəsində o zaman cinayət bilib gizlətdiyi üçün istintaq orqanı tərəfindən cinayət işi başlanmalıydı...."



Əslində hüquqşünasların bir çoxu, elə qətlə yetirilmiş Elçin Əliyevin yaxınları da oxşar fikirdədir. Onlar N.İbrahimovun cinayət faktını illər uzunu gizlətdiyi üçün hüquqi məsuliyyətə cəlb edilməsinin vacibliyini vurğulayırlar. Həttə mərhum E.Əliyevin doğmaları sabiq "diaspor şefi"nin qətldə əli ola biləcəyinə dair də fikirlər səsləndiriblər. Bu yerdə kiçik xatırlatma: rəsmi məlumata əsasən, Rövşən Əkbərovun 2001-ci ilin mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri, Deqtyaryov küçəsi 7 ünvanda yerləşən "Sikora" kafesində yeyib-içdikdən sonra, saat 04 radələrində həmin kafenin yaxınlığında Elçin Əliyev ilə aralarında yaranmış cüzi münaqişə səbəbindən xuliqanlıq niyyəti ilə sonuncunun ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirərək Elçin Əliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. N.İbrahimov isə hadisə baş verdiyi vaxt Ukraynada Azərbaycanın müvəqqəti işlər vəkili vəzifəsində çalışırdı...

Qayıdaq sabiq komitə sədrinin də bu cinayət işi çərçivəsində həbs edilməsinin mümkünlüyü barədə mətbuatın və cəmiyyətin gündəmindən düşməyən iddialara...

Bir çoxlarının fikrincə, əslində N.İbrahimovun yalnız sözügedən cinayət işi ilə bağlı deyil, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsində olarkən törətdiyi qanunsuzluqlara, yeyintilərə görə də mühakiməsi vacibdir. Bu yerdə növbəti xatırlatma: təxminən üç il yarım öncə tutduğu postdan kənarlaşdırılan Nazim İbrahimovun vəzifədə olduğu dövrdə ciddi korrupsiya hallarına yol verdiyi, məhz bu səbəbdən də 2018-ci ilin aprelindən etibarən işsiz qaldığı bildirilir.

Bunu Prezident Administrasiyasının o vaxtkı rəhbəri Ramiz Mehdiyevin N.İbrahimov vəzifəsindən uzaqlaşdırıldıqdan sonra səsləndirdiyi fikirlər də təsdiqləmişdi. Mehdiyev həmin vaxt bildirmişdi ki, "Diasporla İş üzrə Dövlət Komitəsinin işindən narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib". Administrasiyanın sabiq rəhbəri qeyd etmişdi ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

Bu açıqlamalardan sonra ictimaiyyətdə və mətbuatda yeni gözləntilər meydana çıxmışdı: təxminlər bu yöndə idi ki, N.İbrahimov sadəcə postunu itirməklə vəziyyətdən çıxa bilməyəcək, onun haqqında "dövlət tərəfindən ayrılan maliyyə yardımlarının öz ünvanına çatmadığı" üçün korrupsiya ittihamı ilə cinayət işi başlanacaq və proses həbsə qədər uzanacaq. Ancaq aradan hardasa üç il yarım keçib və sabiq "diaspor şefi" ilə bağlı hüquqi müstəvidə heç bir haqq-hesab çəkilməyib. Bunun səbəbini və ya səbəblərini isə izah etmək, əlbəttə, çox çətindir.

Rövşən Əkbərovla bağlı cinayət işində N.İbrahimovun adı yenidən gündəmə gəldikdən sonra belə ehtimallar yaranıb ki, bu məsələdə əsas fiqurlardan biri kimi məhz onun nişan verilməsi təsadüfi deyil. İstisna edilmir ki, keçmiş komitə sədri ilə bağlı qarşıdakı mərhələdə maraqlı proseslər cərəyan eləsin: ondan yalnız bir qətllə bağlı gerçəkləri uzun illər gizlətməsinin, fərqli ifadələr verib istintaqı yanıltmağa çalışmasının yox, həm də vaxtilə vəzifədə olarkən büdcədən çırpışdırdığı pulların hesabı soruşulsun...

***Hüseyn İsgəndərov***

# Cavanşir Paşazadənin sürücü məşəqqəti...

## Həftənin replikası: deputata düz-əməlli status yazan şofer tapmaq nəsib olacaqmı?

***Günlər öncə sosial şəbəkələrdə əsas müzakirə mövzularından biri olan Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin qardaşı olan deputat Cavanşir Paşazadənin bir paylaşımı idi. Özbəkistanda keçirilən prezident seçkiləri ilə bağlı özünün sosial şəbəkə hesabı üzərindən yazdığı statusdakı bir cümlədə bir neçə səhv buraxması haqlı olaraq cəmiyyət tərəfindən birmənalı qarşılanmamışdı.***

C.Paşazadənin ölkəmizin adını belə düzgün yazmaması xüsusilə hiddət doğurmuş, kəskin tənqidlərə yol açmışdı.

Nəhayət, deputat özü gedən müzakirələrlə bağlı yerli mətbuata açıqlama vermişdi. Özü də necə açıqlama! Ataların sözü ilə desək: "Üzrü günahından betər!"

Belə ki, Cavanşir Paşazadə məlum yazını özünün yazmadığını bildirmişdi. Məgər paylaşımı deputatın sürücüsü edibmiş!

Sitat: "Ümumiyyətlə, mən belə işlərlə məşğul olmuram. Bir də ki, mənim sürücüm nə yazıb bunun kimə nə dəxli var".

Bundan başqa, Paşazadənin həmin sürücüsünü işdən qovduğu da bildirilmişdi.

Bəs çox hörmətli Şeyxin çox hörmətli qardaşının bu açıqlamasını "üzrü günahından betər" şəklində dəyərləndirməyimizin səbəbi nədir? Əslində ortada bir yox, bir neçə səbəb var. Necə? Elə isə gəlin bircə-bircə sadalayaq.

Əvvəla, deputat deyir ki, "mən belə işlərlə məşğul olmuram". Gülməlidir, çünki Cavanşir müəllim "belə işlərlə məşğul olmağı" özünə rəva bilmir, yaraşdırmır, lap elə bununla vaxt səbəbilə məşğul ola bilmirsə, onda facebook-da şəxsi səhifəni nə üçün açır? Olmazmı, deputa-



tın ofisi adından rəsmi bir səhifə yaradılsın, o səhifəyə də Azərbaycan dilində normal cümlə yaza biləcək bir nəfər admin təyin edilsin, məsələ də bitsin. Yoxsa həm şəxsi səhifə yaradıb həm də "mən belə işlərlə məşğul olmuram" deyəcəksinizsə onda da başqa bir atalar sözü yada düşəcək: "O nə pəhriz, bu nə turşu?!"

İkincisi, C.Paşazadənin məlum paylaşımı, yuxarıda da qeyd elədiyimiz kimi, Özbəkistandakı seçkilərlə bağlıdır və deputat da həmin seçkiləri yerindəcə müşahidə edib, paylaşımda da bu müşahidə nəticəsində təəssüratlar ifadə olunub. İndi belə çıxır ki, çox hörmətli Şeyxin çox hörmətli qardaşı öz sürücüsünü də Özbəkistana aparıbmış? Elə isə məsələ gülməli yox, lap şaqqanaq çəkməlidir. Hər halda deputatın məhz sürücü ilə başqa bir ölkəyə seçki müşahidə etməyə getməsinə ayrı cür necə reaksiya verək olar?

Üçüncüsü, C.Paşazadə günlər öncəki paylaşımı ilə bağlı tənqidlərdən yaxasını bu açıqlama ilə kənara çəkməyə çalışdı, amma...

Amma məsələ orasındadır ki, bundan bir neçə gün sonra çox hörmətli Şeyxin çox hörmətli qardaşının şəxsi sosial şəbəkə səhifəsində bu dəfə onun şəhid ailələri və qazilərlə görüşü barədə paylaşım edildi və həmin paylaşımda da çoxsaylı dil xətaları diqqət çəkdi. Hətta bəzi cümlələrdən ümumiyyətlə heç nə anlamaq mümkün deyildi.

Nəzərə alsaq ki, əvvəlki paylaşımın "günah keçisi" sürücü elan edilmişdi və o qovulmuşdu; belə anlamaq olar ki, son paylaşımı da Cavanşir müəllimin yeni sürücüsü yazıb. Elə isə cənab deputatın halına acıya bilərik. Görünür, C.Paşazadənin sürücü sarıdan heç bəxti gətirmir, işə götürdüyü şoferlər adi bir status yazmağa çətinlik çəkirlər.

Məşhur filmimizdə deyildiyi kimi: "8 min pul alıblar məndən, oynamaqlarına bax!"

Sonda cənab deputata yaxşılıq edib gözəl bir məsləhət verməyə istəyirik. Onsuz da ölkədə xeyli varlı, vəzifəli, imtiyazlı adam var ki, başqalarının əməyi hesabına elmlər namizədi, elmlər doktoru olur, özləri bir kitab oxumadıqları halda öz adlarına qalaq-qalaq kitablar yazdırırlar. Bu saat nə qədər alimin, yazarın "çörəyi" məhz bundan çıxır - pullulara, post sahiblərinə elmi iş, şeir, hekayə, monoqrafiya yazmaqdan!

Elə isə Cavanşir müəllim niyə pulla adi bir status yazdırmasın ki! Belədə həm həftə səkkiz, mən doqquz qara camaatın dilinə düşməz, həm də xalqımız o statusları oxuyub sevinər ki, bu cür yüksək savadlı, intellektual deputatımız var. Necə deyərlər, "bir güllə ilə iki quş"...

Hə, Cavanşir müəllim, necə təklifdir?!

***Toğrul Əliyev***

# Hüquq müdafiəçiləri Amnistiya aktı təklifini dəstəklədilər

***Noyabrın 4-də Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlunun təşəbbüsü ilə hüquq müdafiəçilərinin toplantısı keçirilib.***

Toplantıda Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş 8 Noyabr - Zəfər Günü ilə əlaqədar amnistiya elan edilməsi təşəbbüsü ilə bağlı hüquq müdafiə təşkilatı və hüquqşunasların fikirləri dinlənilib.

D.Əliyeva adına QDMC-nin sədri Novella Cəfəroğlu Zəfər gününün Azərbaycan xalqı üçün müstəsna tarxi əhəmiyyət daşıdığını və prezidentin təşəbbüsünü humanist addım böyük hadisə adlandırıb.

Onun sözlərinə görə, amnistiya aktının Vətən müharibəsində və ölkənin ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, həlak olmuş şəxslərin yaxın qohumlarına, Azərbaycan Respublikasının



orden və medalları ilə təltif olunmuş şəxslərə və çoxlu sayda kateqoriyadan olan digər insanlara şamil olunması qələbə günümüzə ən böyük hədiyyə olacaq.

"İnsanların qələbə sevincini öz ailələri ilə birgə keçirməsi üçün bu aktdan irəli gələn vəzifələrin tezliklə icra olunacağına ümid edirik".

Çıxış edən hüquqşunas Əsabəli Mustafayev, Bakı İnsan Hüquqları Klubunun sədri Rəsul Cəfərov, Konstitutsiya Araşdırmalar Fondunun Prezidenti Əliməmməd Nuriyev, QHT-lərə Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının üzvü Əvəz Həsənov, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənanyarlı, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov, hüquq müdafəçisi Dilara Əfəndiya şıxış edərək Amnistiya aktı ilə bağlı fikirlərini bildiriblər.

Tədbir zamanı səslənən fikirlərin ümumiləşdirilərək Prezident Administrasiyasına, Milli Məclisə və Əfv Komissiyasına göndəriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.



# Azərbaycan professional orduya keçir: Çağırış sistemi ləğv ediləcək?

***Dünyanın əksər ölkələri professional orduya keçid edirlər. Hərbçiləri müqavilə əsasında xidmətə cəlb edən belə ordular yüksək döyüş intizamı ilə seçilir.***

Professional orduya ən uğurlu misal kimi qardaş Türkiyəni misal göstərmək olar. Müharibə şəraitində olduğu üçün hərbi mükəlləfiyyətli kişilərin hamısı Azərbaycan Ordusun da xidmət keçməli idi.

Bəs Azərbaycan professional orduya nə vaxt keçəcək? Keçid planları barədə məlumat varmı?

Hərbi ekspert Şair Ramaldanov bu haqda Modern.az-a danışarkən Azərbaycan ordusunun tədricən bu sistemə keçəcəyini söyləyib. Onun fikrincə, hərbi xidmət müddətinin azaldılması hazırda arzuolunan deyil.

"Professional orduya keçid müharibədən öncədə başlamışdı. Müharibəyə qədər Azərbyacanda proses 70%-ə qədər tamamlanmışdı. O vəzifələri mühdddətdən artıq xidmət edənlər daşıyırdılar. Azərbaycan tam professional olmasa da, buna keçid üçün əsas işlərini yekunlaşdırıb. Professional orduya tələb olunan çox şey artıq Azərbaycan ordusunda fəaliyyət göstərir. Məncə, hərbi xidmət müddətinin azaldılmasına ehtiyac yoxdur. Bunun üçün "Hərbi xidmət haqqında" qanuna müəyyən dəyişikliklər olmalıdır".

Milli Məclisin insan hüquqları komitısinin üzvü Zahid Oruc Modern.az-a danışarkən bölgə dövlətlərində hərbi risklərə baxışların dəyişdiyini söyləyib. O, Azərbaycanin professional orduta keçidi yekunlaşdırmaq üzrə olduğunu əlavə edib.

"Ölkənin gələcəkdə hərbi doktrinasını dəyişməsi, təhlükəsizlik sistemindəki kardinal dəyişiklikləri nəzərə alaraq atılması gərəkən addımlar var. Onunla birlikdə ordu ilə bağlıda bir neçə qərarlar qəbul oluna bilər. Bölgə dövlətlərində hərbi risklərə baxışlar dəyişib. Eyni zamanda biz Qarabağ müharibəsindən qalib çıxandan sonra bu yöndə işlər görürük. Ancaq bunla bərabər, müqavilə əsasında yeni ordu yarana bilər. Müxtəlif təlimatlar, sənədlər, normativlər, proqramlar yenilənməlidir. Müharibədən sonra Ali Baş Komandan dedi ki, orduda moderinləşməni döyüş vaxtında müşahidə edirdik. Azərbaycan Silahlı Qüvvələri öz peşəkarlığını qoruyub saxlamaqla müxtəlif sahədə moderinləşməyə getməyi bir vəzifə kimi qarşıya qoyubdur. Müdafiə Nazirliyinin bu yöndə açıqlamalarını eşitmişik, Azərbaycan professional orduya tam olaraq keçid etmək dövrünü yekunlaşdırır. Ordu prosesi dövlətin həm büdcə xərclərində, həm də siyasətində öndə gedir, bundan sonrada biz daim qələbə gətirən Silahlı Qüvvələrimizin yanında olcağıq".



# Azərbaycanın "tender kralı"nın qəfil səssizliyi...

## Dünənədək, az qala, günə bir dövlət satınalmasının qalibi olan şirkətdən indi niyə xəbər yoxdur?

***Azərbaycanda keçirilən tenderlərlə bağlı, az qala, hər gün bir-birindən əndrabadi xəbər oxuyuruq. Elə indi də belə xəbərlərdən biri barədə bəhs edəcəyik.***

Hələ ötən ilin sentyabrında yerli media yazırdı ki, 2019-cu ildə qazanılan dövlət satınalmalarında lider olan "İnpeks.N" MMC-nin dövlət büdcəsinə 7 milyon manatdan çox vergi borcu var. Xəbərdə o da bildirilirdi ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən verilən məlumata görə, şirkət bu günə qədər 7 milyon 263.9 min manat məbləğində vergi ödəməyib.

Bu ilin sentyabrında isə "İnpeks.N" MMC-nin dövlət qarşısında vergi borcunun yeni məbləği açıqlandı. Yenə yerli medianın yazdığına görə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasındakı rəqəmlərə görə, "İnpeks.N" MMC-nin vergi borcu 1 008 644 manatdır.

Qeyd edək ki, bu şirkət 2013-ci ildə dövlət qeydiyyatına alınıb, nizamnamə kapitalı vur-tut 10 manatdır və qanuni təmsilçisi İntiqam Ramazanovdur. Açıq mənbələrdə şirkətin adı yalnız bir məhkəmə çəkişməsində keçir. 22 iyul 2014-cü ildə Bakı Apellyasiya Məhkəməsinin hakimi Əsədov Mehti Fəyyaz oğlunun sədrliyi ilə keçən prosesdə iddiaçı Novruzov Altay Məmməd oğlu cavabdehlərdən - Ramazanov İntiqam Adil oğlu və İsgəndərov Sədrəddin Ziya oğlundan vurulmuş maddi və mənəvi ziyanın ödənilməsini tələb edib. İşə baxan Bakı Apellyasiya Məhkəməsi Nizami rayon Məhkəməsinin iş üzrə qərardadını ləğv edərək işi mahiyyəti üzrə baxılması üçün birinci instansiya məhkəməsinə qaytarıb.

Mətbuatda şirkətin qeyri-rəsmi sahibi olaraq isə indiyədək dəfələrlə Hacı Ramazan Mirzəyev göstərilib. Onun bir çox sabiq iri məmurlarla yaxşı əlaqələrinin olduğu, elə tenderləri də bu əlaqələr müqabilində udduğu barədə mətbuatda dəfələrlə yazılıb. Mirzəyev isə özü barəsində sözügedən iddialara indiyədək hər hansı münasibət bildirməyib.

Xatırladaq ki, vergi borcu olan şirkətlərin tenderdə iştirakı "Dövlət Satınalmaları haqqında" Qanunun 6.2.5-ci maddəsinin tələblərinə görə də mümkün deyil.? Elə isə "İnpeks.N"nin son illərdə davamlı şəkildə tenderlərdə iştirakının və qalib elan edilməsinin səbəbi (yaxud səbəbləri!) maraq doğurmaya bilməz. Şirkətin 7 milyon vergi borcunun yarandığı 2019-cu ilə dair bir statistika isə yetərincə ilgincdir: o vaxtlar "marja.az" adlı iqtisadiyyat saytının "Dövlət satınalmalarının vahid elektron portalı"nda apardığı araşdırmaya görə, "İnpeks.N" şirkəti 28.03.2019 - 24.10.2019 dövründə (179 gündə) malların (işlərin və xidmətlərin) satınalınması üzrə 234 müsabiqənin qalibi olubmuş! Şirkət bağladığı müqavilələr üzrə isə 73 milyon 320 milyon manat gəlir əldə edib.

Böyük məbləğli vergi borcu müqabilində, az qala, orta hesabla gündə birdən artıq tender udan MMC ilə bağlı o vaxtdan bəri mediada dolaşan iddialar, suallar daima cavabsız qalıb.

Ən maraqlısı isə odur ki, adıçəkilən MMC külli miqdarda vergi borclarının olduğu dövrdə saysız-hesabsız tender qazanmaqla yanaşı "hərşeyşünas şirkət" kimi də ad çıxarıb - o, dövlət təşkilatlarının tikinti, təmir, abadlıq işlərinin; ehtiyat hissələrinin, avadanlıqların, mebellərin, geyimlərin, dəftərxana ləvazimatlarının, təsərrüfat mallarının, hətta, kondisionerlərin təmir edilməsinin satın alınması üzrə elan etdikləri tender və kotirovka sorğularında qalib gəlib!

Maraqlıdır ki, bu il adıçəkilən şirkətin hansı tenderləri udduğunu araşdırdıqda internet resurslarından bir bilgi əldə edə bilmədik. "İnpeks.N"lə bağlı ən son məlumatlardan biri odur ki, 2020-ci ildə dövlət mənzil fondunun binalarının təmiri üzrə tenderin qalibi olub. Müqavilənin dəyəri isə 19 milyon 986 min manatdır.

Beləliklə, deyəsən, ötən ilədək ölkənin "tender kralı" ünvanını daşıyan adıçəkilən MMC artıq meydandan çəkilib. Bunun niyəsini bilmək maraqlı olardı.

Doğrudan da kifayət qədər düşündürücü sualdır: ən yaxın tarixəcən milyonluq dövlət satınalmalarının qalibi elan edilən bir şirkət axı nə üçün indi ortalarda görünmür?

***Toğrul Əliyev***

# Azay Quliyevdən ATƏT PA-da erməni nümayəndə heyətinin rəhbərinə cavab

***Noyabrın 3-4-də ATƏT Parlament Assambleyasının payız sessiyası keçirilir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, sessiya öz işinə noyabrın 3-də Daimi Komitənin iclasının keçirilməsi ilə başlayıb.***

Daimi komitənin iclasında Milli Məclis nümayəndə heyətinin rəhbəri, ATƏT PA-nın vitse-prezidenti və Cənub Şərqi Avropa üzrə Xüsusi Nümayəndəsi Azay Quliyev iştirak edib.

Toplantıda ATƏT PA-nın prezidenti, Baş katibi və xəzinədarının hesabatları təqdim edilib və təşkilatın gələcək fəaliyyəti haqda fikir mübadiləsi aparılıb. Daimi komitənin iclasında cari beynəlxalq siyasi məsələlərin müzakirəsinə həsr edilmiş hissəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev çıxış edib.



Azay Quliyev ötən il Ermənistan və Azərbaycan arasında münaqişənin başa çatması ilə regionun reabilitasiya, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoyduğunu bildirib. Bir sıra nailiyyətlərin əldə edilməsinə baxmayaraq ciddi çağırışların hələ də mövcud olmasını qeyd edib. Nümayəndə heyətinin rəhbəri diqqətə çatdırıb ki, bu ilin ilin iyul ayında Azərbaycan işğaldan azad edilmiş və münaqişədən zərər çəkmiş ərazilərdə yenidənqurma və reinteqrasiya işlərinin vahid proqram çərçivəsində aparılması ilə əlaqədar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaradıb.

Deputat azad edilmiş bütün şəhər, qəsəbə və kəndlərin Ermənistan tərəfindən 30 illik işğal zamanı talan edilərək yerlə-yeksan edildiyini diqqətə çatdırıb və hökumətin infrastruktur, bərpa və yenidən qurma işlərinə yalnız bu il ərzində 1,3 milyard ABŞ dolları yönəltdiyini bildirib.

Azay Quliyev son 10 ay ərzində Azərbaycanın mühüm regional layihələrin reallaşdırdığını vurğulayıb. Cəmi səkkiz ay ərzində işğaldan azad edilmiş Füzuli şəhərində Qarabağın dünyaya açılan hava qapısı kimi fəaliyyət göstərəcək yeni beynəlxalq hava limanının inşa edilməsini, eləcə də daha iki beynəlxalq hava limanın tikintisinin həyata keçirilməsini, həmçinin uzunluğu 800 kilometr olan avtomobil yollarının və ümumi uzunluğu 62 kilometr olan 5 tunelin inşa edilməsini haqqında üzv ölkələrin ATƏT PA-dakı nümayəndə heyətlərinin rəhbərlərinə məlumat verib.

A.Quliyev bir neçə gün əvvəl Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə Ermənistan vasitəsi ilə birləşdirəcək "Zəngəzur dəhlizi"nin təməlinin qoyulmasını diqqətəlayiq hadisə olaraq qeyd edib.

Deputat Azərbaycan hökumətinin hazırda əsas məqsədlərindən birinin ata-baba yurdlarından didərgin düşmüş vətəndaşlarının öz yurd-yuvalarına təhlükəsiz qayıdışının təmin edilməsi olduğunu söyləyib. Bu məsələnin həyata keçirilməsində işğaldan azad edilmiş ərazilərin Ermənistan tərəfindən minalanmasının böyük əngəl yaratdığını vurğulayan deputat Ermənistanın bütün mina xəritələrinin verməsindən boyun qaçırması nəticəsində 160-a yaxın günahsız şəxsin, o cümlədən jurnalistlərin həlak olduğunu və yaralandığını bildirib.

O, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazidə qanunsuz erməni silahlı dəstələrinin hələ də mövcud olmasının sabitliyi təhdid altına saldığını və erməni əsilli Azərbaycan vətəndaşlarının ölkənin siyasi, sosial və iqtisadi həyatına inteqrasiya edilməsinə manеə yaratdığını vurğulayıb. A. Quliyev Üçtərəfli Bəyanatın 4-cü bəndinə əsasən Ermənistanın qeyd olunan ərazidən qeyri-qanuni silahlı birləşmələrinin qalıqlarını çıxarması öhdəliyini götürdüyü xatırladıb.

Deputat bildirib ki, Azərbaycanın hazırkı post-münaqişə mərhələsində əsas prioritetlərindən biri Ermənistanla dövlət sərhədinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun delimitasiyası və demarkasiyasını həyata keçirməkdir. Azərbaycanın həmçinin bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörməti əsasında, o cümlədən bu prinsiplərə əsaslanan Sülh Müqaviləsinin imzalanması yolu ilə Ermənistanla dövlətlərarası münasibətlərin normallaşmasına hazırdır olduğunu diqqətə çatdırıb.

Azay Quliyev çıxışının sonunda həmkarlarını tarixə qovuşmuş "Dağlıq Qarabağ" və ya qondarma "status" kimi anlayışlara istinad etməməyə çağırıb, eləcə də bu cəhdlərin heç bir müsbət nəticə vermədiyini və reallığı əks etdirmədiyini vurğulayıb. Deputat iclas iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan Respublikasında "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi yoxdur və bir daha xatırladıb ki, Azərbaycan öz suveren hüququna və beynəlxalq təcrübəyə əsaslanaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıb. Deputat hər kəsi ölkəsinin bu legitim haqqına hörmət etməyə çağırıb. Bu cür cəhdlərin Ermənistana, xüsusən də onun revanşist dairələrinə yanlış siqnal göndərdiyini, onlarda səhv ümid və gözləntilər yaratdığını, eləcə də Üçtərəfli Bəyanatın imzalanması ilə regionda yaranmış kövrək sülhü təhdid altına saldığını vurğulayan Azay Quliyev Ermənistanın Azərbaycanın sülh təklifinə adekvat cavab verməyə, qonşuları ilə münasibətləri normallaşdırmağa çağırıb.

İclasın davamında Ermənistan nümayəndə heyətinin rəhbəri yeni rəhbəri Eduar Ağacanyan söz alaraq ölkəmizə qarşı əsassız ittihamlar səsləndirib.

Azay Quliyev təkrar söz alaraq erməni nümayəndə heyətinin rəhbərinin əsassız ittihamlarına tutarlı cavab verib. Deputat erməni həmkarını köhnəlmiş və artıq heç bir mənası olmayan narrativlərdən əl çəkməyə çağırıb, ermənilərin təbliğat məqsədilə istifadə etdiyi böhtan və yalan xarakterli çıxışlarının artıq ikrah və gülüş hissi doğurduğunu bildirib. Azay Quliyev Ermənistan nümayəndə heyətinin yeni rəhbərinin əvvəlki həmkarının səhvlərini təkrar etməməyə, konstruktiv olmağa və parlament dilini öyrənməyə səsləyib.

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qayıdışın Astanasında



***44 günlük müharibə nəticəsində Azərbaycanın 28 il işğal altında olan torpaqlarını azad etməsindən az keçməmiş yağı tapdağından azad olmuş torpaqlarmızda quruculuq işlərinə başlanılıb. Düşmənin viran qoyduğu kənd və şəhərlərimizə yeni nəfəs gəlib. Xarabalığa çevrilmiş şəhərlərin baş planları hazırlanır,minalardan təmizlənmə işləri başa çatdıqca yenidənqurma işlərinə başlanılır. Bu qəlbi 28 il Vətən həsrəti ilə döyünən, illərdir məcburi-köçkün həyatı yaşamış insanlarda tezliklə öz yurd-yuvalarına qayıtmaq ümidini gücləndirir. İşğaldan azad edilmiş torpaqlarımızın sakinləri arasında heç bir şərait qurulmamış öz yurduna geri dönənlər də var. Onlardan biri arıçı Sabir Mustafayevdir...***

Sabir dayı Kəlbəcərin Ağcakənd kəndində dünyaya göz açıb. Kəlbəcərin işğal olunması ilə öz yurd-yuvasından didərgin düşən S.Mustafayev bu yay öz ata ocağına geri dönüb. Həm də öz bəslədiyi arıları ilə birgə... Atababası arıçı olan S. Mustafayev bu il balı da doğma Kəlbəcər yaylağında süzüb.

S. Mustafayevin sözlərinə görə, ona kəlbəcərli arıçıların Kəlbəcərə aparılacağı xəbərini deyəndə sevincdən uçmağa qanadı olmayıb: "İnanın ki, bəlkə də qanadım olsaydı uçardım sevincimdən. Mənə öz arı ailəmi də götürüb doğma torpağa qayıtmaq imkanı yaradılırdı. Kəlbəcər işğaldan azad ediləndən sonra hər gün oturub fikirləşirdim ki, bu yurd həsrəti nə vaxt bitəcək? Bu ilin yayında bir qrup arıçı daxil olmaqla məni də Kəlbəcərə apardılar. Kəndlərimiz xarabalığa çevrilmiş, qəbirlərimiz dağıdılmışdı. Bircə yerində dayanan dağlar, çəmənlər, qayalar idi. Buna görə ürəyimizin başı göynəsə də, sevinirdik ki, biz Kəlbəcərə qayıtmışıq. Həm də öz işimizlə, gücümüzlə birlikdə... Orada arı bəsləyib məhsul götürdük. Bunları yaşamaq mənim illərlə ürəyimdə daşıdığım arzum olub. Buna görə Ali Baş Komandanımıza, şəhidlərimizə, qazilərimizə sonsuz minnətdaram. Onların sayəsində biz yenidən sanki doğulduq. 28 il əvvəl məcburi, qaçaqaçla tərk etdiyin yurda qayıtmaqdan böyük bir xöşbəxtlik ola bilməz".

S.Mustafayev onu da deyir ki, Kəlbəcərə qayıdışı ilə sanki o yenidən doğulub: "Torpağımıza qayıtmaq bizim yenidən doğuluşumuzdur. Biz 28 il öz evimizin həsrətini çəkmişik. Kəlbəcərin hər daşı, hər qayası üçün qəribsəmişik. 28 il gözləmişik ki, torpağımıza qayıdaq. Şükür ki, bu gün bizə nəsib oldu".

Həmsöhbətimiz bildirir ki, Kəlbəcərə qayıdanda yaşadıqları hisləri sözə çevirmək mümkün deyil. Kəlbəcərin təmiz havasını ciyərlərinə çəkən sakin, orda olduğu dövrdə kövrəldiyini də gizlətmir. Biz arılar məhsul verənədək orda olduq. Adam hərdən kövrəlirdi ki, bu boyda kəndlər, şəhərlər boş qalıb. Amma inanıram ki, Kəlbəcərdə yenidən həyat qaynayacaq. Bütün kəlbəcərlilər yurdlarına geri dönəcəkləri günü gözləyirlər.O gün lap yaxındadır".

Onu da qeyd edək ki, artıq işğaldan azad olunmuş torpaqlara qayıdış üçün kənd və şəhərlərin yenidən qurulması işlərinə başlanılıb.

Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin bərpasının təməl daşını qoyublar. Həmçinin prezident oktyabrın 10-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib. Səfər zamanı Hadrut qəsəbəsində yeni məscidin təməli qoyulub. Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış olub. İlham Əliyev yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyub. Oktyabrın 4-də isə prezidentin iştirakı ilə Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilib. Oktyabrın 4-də eyni zamanda Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirilib. Həmin gün Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışı olub. İlham Əliyev Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində iştirak edib. Oktyabrın 3-də Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. Füzuli Beynəlxalq Hava Limanında son tamamlanma işləri aparılır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Qarabağ" hotelinin açılışı olub. Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri aparılır. Bir müddət əvvəl Ağdam şəhərinin bərpasının təməl daşı qoyulub. Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməli atılıb.

Görülən bütün bu işlər illərdir məcbur köçkün həyatı yaşayan insanlarda doğma torpaqlara tezliklə geri dönməyə böyük ümid yaradır. İşğaldan azad olunmuş torpaqlarda tikinti-quruculuq işlərinin sürətlə aparılması düşmənin xarabalığa çevirdiyi kənd və şəhərlərə böyük qayıdışın uzaqda olmadığından xəbər verir. Hər inşa olunan bina, hər təməli atılan məktəb binası yaxın gələcəkdə doğma yurd yerlərimizdə 28 ildən sonra həyatın öz axarına qayıdacağına ümidi artırır. İllərdir çətin şəraitdə yaşayan insanlar 28 il əvvəl çıxdıqları evlərinin çırağını yandıracaqları günü səbirsizliklə gözləyirlər. Düşmən minaladığı ərazilərin xəritəsini verməkdən imtina etməsi ilə Qarabağda quruculuq işlərini yubatdığını düşünsə də, Azərbaycanın işğaldan azad etdiyi torpaqlarda gördüyü işlər minalanmış ərazilərin də cənnətə çevriləcəyi günün yaxında olduğunu göstərir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## "Qaçqınkom"un sədri "Yüksəliş"in qalibi ilə görüşdü

***"Yüksəliş" müsabiqəsinin mentorluq proqramı çərçivəsində müsabiqənin idarəçi rəhbərləri ilə qalibləri arasında görüşlər davam edir.***

Bu barədə "Unikal"a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bildirilib ki, Dövlət Komitəsinin sədri Rövşən Rzayev "Yüksəliş" müsabiqəsinin qalibi Xamis Seyranovla görüşüb.

Komitə sədri deyib ki, bilikli, savadlı vətəndaşlarla işləməyi bacaran insan uğurlu rəhbər ola bilər.

Eyni zamanda qeyd edilib ki, Dövlət Komitəsinin mentorluq proqramı komitə sədri ilə görüş və söhbətlərdən, məcburi köçkünlərlə görüşlərdən, onların məskunlaşdıqları ərazilərə səfərlərdən ibarət olacaq.

Müsabiqənin qalibi Xamis Seyranov Rövşən Rzayevin Dövlət Komitəsinin sədri kimi və ondan önçəki fəaliyyəti ilə tanış olduğunu deyib, ondan uğur yolu, təcrübəsi barədə məsləhətlər, tövsiyələr almaq istədiyini vurğulayıb.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsinin idarəçi rəhbərlər heyətinin tərkibinə iqtisadiyyat naziri Mikayıl Cabbarov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, energetika naziri Pərviz Şahbazov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, kənd təsərrüfatı naziri İnam Kərimov, maliyyə naziri Samir Şərifov, xarici işlər naziri Ceyhun Bayramov, gənclər və idman naziri Fərid Qayıbov, DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Ombudsman Səbinə Əliyeva, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Mərkəzi Bankın sədri Elman Rüstəmov, "Kapital Bank"ın İdarə Heyətinin sədri Rövşən Allahverdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "BP" şirkətinin Azərbaycan, Gürcüstan, Türkiyə regionunda xarici əlaqələr və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru Balakişi Qasımov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətininsədri Orxan Məmmədov daxildirlər.

Müsabiqənin şərtlərinə əsasən, qalib bir il müddətində müsabiqənin idarəçi rəhbəri ilə mentorluq proqramı çərçivəsində əməkdaşlıq edərək təcrübə keçəcək.

"Yüksəliş" müsabiqəsi 21-51 yaş aralığında, iki illik idarəçilik təcrübəsi olan, ali təhsilli Azərbaycan Respublikasının vətəndaşlarını əhatə edir. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir. Müsabiqədə ümumilikdə 11 760 nəfər qeydiyyatdan keçib. Onlardan 9 775 nəfəri müsabiqəyə qəbul edilib.



## Roma Papası Qlobal Bakı Forumuna müraciət etdi

***Roma Papası Fransisk VIII Qlobal Bakı Forumuna müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciəti forumun açılış mərasimində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin oxuyub.

Roma Papası Forumun keçirilməsinin həm də Nizami Gəncəvinin 880 illiyi ilə eyni vaxta düşdüyünü bildirib:

"Nizami Gəncəvi yaradıcılığına hörmət əlaməti olaraq 2021-ci il Azərbaycanda "Nizami ili" elan olunub.

Nizaminin ədəbi irsi regional birlik üçün bir elementdir. İnanıram ki, bu forum konkret və səmərəli təkliflər təqdim edəcək ki, bu da beynəlxalq cəmiyyət üçün də önəmlidir. Həmçinin bu ortaq marağın tapılması beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, dialoqa və qarşılıqlı hörmətlə bağlı öhdəliklərin gücləndirilməsinə təkan verəcək".

## Bu dövlət idarəsi ləğv edilir - Səlahiyyətləri nazirliyə verilir

***Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv ediləcək.***

"Unikal" xəbər verir ki, Qaynarinfo-nun əldə etdiyi məlumata görə, idarənin tabeliyindəki təhsil müəssisələri Təhsil Nazirliyinə təhvil veriləcək. Artıq bununla bağlı layihə hazırlanıb və müvafiq qurumlara təqdim edilib.

Layihəyə baxıldıqdan sonra qarşıdakı aylarda təsdiq olunacağı gözlənilir.

Qeyd edək ki, 2011-ci ilədək nazirliyin balansında olan bu sahə Bakı şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib. İdarənin rəisi isə Yunusov Eldar Əli oğludur.

## Bakıda şirkət rəhbərinə hökm oxundu

***Bakı Ağır Cinayətlər Məhkəməsində milyonlarla manatı mənimsəmədə ittiham edilən Adıgözəlov Füzuli Qəşəm oğlunun cinayət işi üzrə məhkəmə iclası başa çatıb.***

Hakim İlham Mahmudovun sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub.

Məhkəmənin hökmü ilə F.Adıgözəlov 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma nəticəsində "Güllübulaq" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) təsisçisi və faktiki rəhbəri Adıgözəlov Füzuli Qəşəm oğlunun cinayət əməlləri üzə çıxıb.

F.Adıgözəlov 2011-2015-ci il tarixlərində Türkiyədən müxtəlif məhsullar idxal edib, MMC-yə məxsus 1 milyon 885 min manat məbləğində pul vəsaitinin hesabına malların dəyərini və gömrük rüsumlarını ödəyib, malların satışından əldə etdiyi gəlirdən Cəmiyyətə ödəniş etməyib.

Bundan başqa, F.Adıgözəlovun 2011-2015-ci illər ərzində ümumilikdə 8 milyon 396 min manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən qəsdən yayınmasına da əsaslı şübhələr yaranıb.

Füzuli Adıgözəlov Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə) və 213.2.2-ci (külli miqdarda vergiləri ödəməkdən yayınma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Azərbaycan və BƏƏ arasında bir sıra sənədlər imzalandı

***İqtisadiyyat naziri, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Dubay şəhərində səfərdədir.***

"Unaikal" bu barədə İqtisadiyyat Nazirliyinə istinadən xəbər verir. Məlumata görə, nümayəndə heyətinə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, xarici işlər nazirinin müavini Fariz Rzayev, energetika nazirinin müavini Kamal Abbasov, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov,Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, digər aidiyyəti dövlət



qurumlarının nümayəndələri və sahibkarlar daxildir.

Səfər çərçivəsində M.Cabbarovla BƏƏ-nin iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marri arasında görüş keçirilib. Azərbaycanlı nazir səfərin BƏƏ üçün əlamətdar dövrə təsadüf etdiyini qeyd edib, qarşı tərəfi 3 noyabr Bayraq Günü münasibətilə təbrik edib. M.Cabbarov ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu, dövlət başçılarının siyasi iradəsinin əməkdaşlığın inkişafında mühüm rolunu vurğulayıb. O, qeyd edib ki, qarşılıqlı səfərlər, aparılan müzakirələr əlaqələrimizin yeni istiqamətlərinin müəyyənləşdirilməsində xüsusi rol oynayır. Azərbaycan və BƏƏ arasında Birgə Hökumətlərarası Komissiya, BƏƏ-də Azərbaycanın Ticarət Nümayəndəliyi və Dubayda "Azərbaycan Ticarət Evi" işgüzar əlaqələrin inkişafı üçün səmərəli platformalardır. Azərbaycanın "Dubay EXPO 2020" ümumdünya sərgisində təmsil olunması da yeni biznes tərəfdaşlığına və investisiyaların cəlb edilməsinə əlverişli şərait yaradır. Görüşdə həmçinin, Azərbaycan iqtisadiyyatı, ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair Milli Prioritetləri və qarşıya qoyulan hədəflərə nail olunması istiqamətində görülən tədbirlər diqqətə çatdırılıb.

A.B.T.A.Marri ölkəsində Azərbaycanla tərəfdaşlığa xüsusi önəm verildiyini, əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb, ölkələrimiz arasında çoxsahəli əməkdaşlığın gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin yeni birgə layihələrin reallaşdırılmasına, iqtisadi-ticarət münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə tərəflər iqtisadi əlaqələrin inkişafı istiqamətlərini müzakirə ediblər.

Səfər çərçivəsində Azərbaycan və BƏƏ arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib. İclasda M.Cabbarov qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan Azərbaycan-BƏƏ əməkdaşlığının beynəlxalq təşkilatlar çərçivəsində də inkişaf etdiyini, qarşılıqlı dəstəyə əsaslandığını bildirib və regional inkişafda rolunu vurğulayıb.

İqtisadiyyat naziri ticarət və investisiya əməkdaşlığının əsas istiqamətlərdən olduğunu, COVİD-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ticarət dövriyyəsində artım dinamikasının müşahidə edildiyini diqqətə çatdırıb. Tədbirdə ticarət əlaqələrinin şaxələndirilməsinin önəmi, Azərbaycanın qeyri-neft məhsullarının BƏƏ bazarlarına çıxarılması imkanlarının daha geniş olduğu vurğulanıb. Ölkəmizin BƏƏ-də təşkil edilən sərgilərdə, investisiya forumlarında fəal iştirakı yerli məhsullarımızın BƏƏ bazarlarında təşviqini genişləndirir. Azərbaycan şirkətlərinin "Dubay EXPO 2020" sərgisində iştirakı məhsullarımızın, ölkəmizin investisiya imkanlarının tanıdılmasında xüsusilə əhəmiyyətlidir.

BƏƏ iş adamları da Azərbaycanın əlverişli biznes mühitindən faydalanır, nəqliyyat, ticarət, sənaye, kənd təsərrüfatı, xidmət və s. sahələrdə fəaliyyət göstərirlər.

İclasda ölkəmizin investisiya cəlbediciliyi barədə məlumat verilib, Azərbaycan və BƏƏ arasında bərpa olunan enerji, sənaye, turizm, rəqəmsallaşma, 4-cü Sənaye İnqilabı texnologiyalarının tətbiqi, kiçik və orta biznesin inkişafı, ərzaq təhlükəziliyi və digər sahələrdə əməkdaşlıq imkanlarının böyük olduğu qeyd edilib. M.Cabbarov torpaqlarımızın işğaldan azad olunmasının yeni reallıqlar və regional əməkdaşlığın inkişafı baxımından böyük imkanlar yaratdığını vurğulayaraq, bu ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işləri, o cümlədən Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının yaradıldığını, Füzuli Beynəlxalq Hava Limanının fəaliyyətə başladığını diqqətə çatdırıb. Vurğulanıb ki, sənaye, kənd təsərrüfatı, enerji, tranzit, turizm sahələrində böyük resurslara malik Qarabağ bölgəsində tərəfdaşlıq qarşılıqlı faydalı əməkdaşlığımıza əlavə stimul verə bilər.

A.B.T.A.Marri ölkələrimiz arasında bir çox sahələrdə uğurlu əməkdaşlığı qeyd edib, tərəfdaşlığın genişləndirilməsi istiqamətləri barədə fikirlərini bildirib, "Dubay EXPO 2020" sərgisinin yaratdığı imkanlar barədə məlumat verib, Azərbaycanın sərgidə təmsil olunmasından məmnunluğunu ifadə edib.

Tədbirdə tərəflər iqtisadi-ticarət əlaqələrinin intensivləşdirilməsi perspektivlərini müzakirə ediblər.

İclasın sonunda yekun Protokol imzalanıb. Sənəddə ikitərəfli iqtisadi əlaqələr, investisiya, ticarət, "yaşıl" enerji, kənd təsərrüfatı, qida təhlükəsizliyi, innovasiya, logistika, turizm, səhiyyə, elm sahələrində əməkdaşlığın gücləndirilməsi, eləcə də iki ölkə arasında işgüzar əlaqələrin, KOB-lar arasında tərəfdaşlığın genişləndirilməsi və qarşılıqlı investisiyaların təşviqi məqsədilə Biznes Şurası və işçi qrupların yaradılması nəzərdə tutulur.

Komissiyanın iclası çərçivəsində həmçinin, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Dubay Ticarət və Sənaye Palatası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəd ikitərəfli ticarət və biznes şəbəkələrinin genişləndirilməsi istiqamətində əməkdaşlığı nəzərdə tutur.

Azərbaycan nümayəndə heyəti BƏƏ-yə səfəri çərçivəsində bu ölkənin 4-cü Sənaye İnqilabı Mərkəzində olub. Vurğulanıb ki, Dördüncü Sənaye İnqilabının çağırışlarına sürətlə və çevik uyğunlaşma qabaqcıl texnologiyaların sürətlə mənimsənilməsinin, onların vətəndaşlara və biznes maraqlarına xidmət etməsi baxımından xüsusilə əhəmiyyətlidir. Azərbaycanda da bu məqsədlə İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi yaradılıb və hər iki ölkənin Dördüncü Sənaye İnqilabı Mərkəzləri şəbəkəsinə qoşulması bu sahədə əlaqələr üçün perspektivlər açır.

Görüş çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi və Dünya İqtisadi Forumunun BƏƏ-dəki Afilləedilmiş Mərkəzinə ev sahibliyi edən qurumu "Dubai Future Foundation" arasında Anlaşma Memorandumu imzalanıb. Sənəd rəqəmsal həllərin və Dördüncü Sənaye İnqilabı texnologiyalarının tətbiqi sahəsində əməkdaşlığı ehtiva edir.

# Böyük Zəfərimizə töhfə verən zabitlər - İlham və Elgiz Mehdiyev qardaşları





***Dövlətçilik tariximizin unudulmaz səhifəsi olan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu öz üzərinə düşən missiyanı uğurla başa çatdırdı. Müharibənin ilk günlərindən son gününədək hərbi qulluqçularımız cəbhənin müxtəlif istiqamətlərində qəhrəmanlıq göstərərək erməni işğalçılarını ağır məğlubiyyətə uğratdı. Azərbaycanın əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdi, torpaqlarımızı qəhrəman şəhidlərimizin qanı-canı bahasına azad etdi. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqına Zəfər sevincini bəxş etməklə yanaşı, xalqımızın qəhrəman oğullarını da bir daha öz xalqına tanıtdı.***

Haqqında bəhs edəcəyimiz igidlər Zəfər tariximizə öz töhfəsini verən bir ailənin övladları olan İlhamla Elgiz qardaşlarıdı. Hər ikisi qədim yurdumuz olan Qərbi Azərbaycanın Basarkeçər rayonunun Qoşabulaq kəndində dünyaya göz açıb. Hələ körpə yaşlarından ermənilərin xalqımıza xarşı işğalçılıq siyasətinin çanlı şahidləri olublar.

Məhz bu səbəblərdən biri kimi İlham Mehdiyev kiçik yaşlarından hərb sənətinə böyük maraq göstərib. 1998 - ci il Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2001- ci ildə hərbi liseyi uğurla başa vuraraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Ali Hərbi Məktəbi də 2005-ci ildə bitirərək, leytenant rütbəsi ilə Silahlı Qüvvələrimizdə xidmətə başlayıb. Mayor İlham Mehdiyev xidmət illərində bir çox dövlətlərdə keçirilən təlim və kurslarda Azərbaycan Ordusunu layıqincə təmsil edib. O, 27 sentyabr 2020- ci ildə Vətən müharibəsinin ilk günündən son gününədək döyüşlərdə böyük şücaət göstərmişdir.Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğurunda Suqovuşan istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak edib. Ali Baş Komandan Prezident İlham Əliyevin sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunub. Qələbəmizin bir illinin tamam olduğu günlərdə mayor İlham Mehdiyevin döyüşlərdə göstərdiyi şücaət gənclərimizə çox gözəl bir nümunədir. İki övlad atası olan qalib Ordumuzun zabiti öz ovladlarını da vətənimizə dövlətimizə layiqli övlad kimi yedişdirməyi ən vacib amillərdən biri hesab edir.

Atalarımız yaxşı deyib; "Ot kökü üstündə bitər". İlhamla Elgizin babası Abbas Mehtiyev II Dünya Müharibəsinin veteranı olub. Onlar Abbas babasını hər zaman xoş xatirələrlə anır məhz onun üzərilərində nümunəvi tərbiyəsinin təsirlərini yüksək qiymətləndirirlər.

Baş gizir Elgiz Mehdiyev də hərb sənətinə körpə yaşlarından maraq göstərib. Öz istəyi ilə çətin və məsuliyyətli hərbi peşəni özünə həyat yolu seçib. Bir çox dövlətlərin hərbi təlim və kurslarında yüksək nəticələr göstərərək, diplom və sertifikatlara layiq görülüb. Müharibə başlanan ilk gündən Cəbrayıldan Qubadlıyadək Əməliyyat İmkanları Konsepsiyasının tərkibində düşmənin ilk müdafiə səddini yaran cəsur əsgər və zabitlərimizlə birlikdə böyük şücaətlər göstərib. Döyüşlərin birində ağır travma almasına baxmayaraq, yenidən ön xətdə savaşa davam edib. Bu döyüşlərin birində tabor komandiri mayor Hüseynov Rəhim Qədir oğlu şəhid olub. Baş gizir Elgiz Mehtiyev Rəhim haqqında hər dəfə danışarkən göz yaşlarına hakim ola bilmir.

Azərbaycanın ərazi bütövlüyü uğurunda gedən döyüşlərdə göstərdiyi şücaətlərə görə baş gizir Elgiz Mehtiyev Ali Baş Komandan Prezident İlham Əliyevin sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", " Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medaları ilə təltif olunub. Hazırda hərbi xidmətini uğurla davam etdirir. Elgiz xalqımızın və iki övladının bu dövlətdə təhlükəsiz yaşaması üçün istənilən mücadiləyə hazır olduğunu bildirir.

Şəhidlərimizin qazilərimizin belə övladlarımızın sayəsində yaxın günlərdə Zəfər gününün bir illiyini Azərbaycan xalqı bayram edəcək. Bu böyük Zəfəri bizə yaşadan şəhidlərimizə allahdan rəhmət diləyir, onların ruhunu hörmətlə anırıq, qazilərimizin tezliklə öz sağlıqlarına qovuşmasını diləyirik.

# 22 şəhidi döyüş meydanından çıxaran gizirin ildönümüdür

***Bu gün şəhid gizir Elqaş Barat oğlu Əliyevin şəhadətindən 1 il ötür.***

Şəhid E.Əliyev doğulduğu Lerik rayonun Bırkandul kəndəndə torpağa tapşırılıb. Şəhidin ildönümündə Lerik rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhidin yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, müharibənin ilk günündən döyüşə qatılan gizir E.Əliyevin döyüş yolu Füzuli rayonudan başlayır. Böyük şücaət və qəhrəmanlıqlar göstərərək düşmənə sinə gərən şəhidimiz daha sonra Ağdam, Cəbrayıl və Laçın dəhlizi istiqamətində gedən şiddətli döyüşlərdə də iştirak edir, düşmənə sarsıdıcı zərbələr endirir və xeyli sayda canlı qüvvəsini məhv edir. Elqaş Əliyev 03 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olur.

Şəhidin döyüş yoldaşlarının dediklərinə görə, Elqaş döyüşdə mərdliklə iştirak etmiş, heç nədən çəkinməmiş və böyük qəhrəmanlıqlar göstərmişdir. Dəfələrlə mühasirəyə düşən əsgər yoldaşlarını xilas etmişdir. Elqaş 22 şəhidimizin nəşini döyüş meydanından çıxarmış və 6 yaralı əsgərimizi təyin olunan məntəqəyə çatdırılmasına kömək etmişdir. Təkbaşına səngərdə 14 əsgərimizi pulemyotla xilas etmiş, düşmən mövqeyine 3 qumbaraatan ataraq onların postunu və kazarmasını külə döndərmişdir. Elqaşın göstərdiyi şücaətləri saymaqla bitməz.




Prezident İlham Əliyevin Elqaş Barat oğlu Əliyev ölümündən sonra "Xocavəndin azad olumasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilir.

Allah rəhmət eləsin. Vətən sağ olsun!




# "Vətən və İman" kitabının təqdimatı

***"Bu gün diqqətinizə təqdim etdiyimiz "Vətən və İman" adlı nəşr Birinci və ikinci Qarabağ müharibələri dövründə Azərbaycanın din xadimlərinin imanlı mücadiləsinə, Vətən torpağı uğrunda mübarizəsinə dair indiyədək heç yerdə dərc olunmamış məlumatlar ilk dəfə geniş oxucu kütləsinin diqqətinə təqdim edir".***

"Unikal" xəbər verir ki, bunu QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə bu gün "Vətən və İman" kitabının təqdimatında çıxışında deyib.

O qeyd edib ki, "Vətən və İman" kitabının ingilis dilinə tərcüməsi üzərində işlər gedir: "Kitabın əhəmiyyətini nəzərə alaraq, dünya çapında daha çox insanın diqqətinə çatdırılması məramı ilə onun ingilis dilinə tərcüməsi üzərində iş gedir. Vətəni sevən imanlı insanların şücaət və saleh əməllərinə, Azərbaycan multikulturalizminin örnək nümunələrinə dair bu dəyərli nəşrdə əksini tapan həqiqətlər elm və təhsil müəssisələrində öyrənilməli, tədris olunmalı, məscidlərimizdə, din xadimlərimizin moizələrində təbliğ və təşviq olunmalıdır.

Bu kitanın nəşrində əməyi keçən Araz Qurbanova və idarəmizin kollektivinə dərin minnətdarlığımı bildirirəm".

# Hüquq müdafiəçiləri Amnistiya aktı təklifini dəstəklədilər

***Noyabrın 4-də Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlunun təşəbbüsü ilə hüquq müdafiəçilərinin toplantısı keçirilib.***

Toplantıda Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş 8 Noyabr - Zəfər Günü ilə əlaqədar amnistiya elan edilməsi təşəbbüsü ilə bağlı hüquq müdafiə təşkilatı və hüquqşunasların fikirləri dinlənilib.

D.Əliyeva adına QDMC-nin sədri Novella Cəfəroğlu Zəfər gününün Azərbaycan xalqı üçün müstəsna tarxi əhəmiyyət daşıdığını və prezidentin təşəbbüsünü humanist addım böyük hadisə adlandırıb.

Onun sözlərinə görə, amnistiya aktının Vətən müharibəsində və ölkənin ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, həlak olmuş şəxslərin yaxın qohumlarına, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərə və çoxlu sayda kateqoriyadan olan digər insanlara şamil olunması qələbə günümüzə ən böyük hədiyyə olacaq.

"İnsanların qələbə sevincini öz ailələri ilə birgə keçirməsi üçün bu aktdan irəli gələn vəzifələrin tezliklə icra olunacaqına ümid edirik".

Çıxış edən hüquqşunas Əsabəli Mustafayev, Bakı İnsan Hüquqları Klubunun sədri Rəsul Cəfərov, Konstitutsiya Araşdırmalar Fondunun Prezidenti Əlimməmməd Nuriyev, QHT-lərə Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının üzvü Əvəz Həsənov, Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənanyarlı, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov, hüquq müdafəçisi Dilara Əfəndiya şıxış edərək Amnistiya aktı ilə bağlı fikirlərini bildiriblər.

Tədbir zamanı səslənən fikirlərin ümumiləşdirilərək Prezident Administrasiyasına, Milli Məclisə və Əfv Komissiyasına göndəriləcəyi iştirakçıların diqqətinə çatdırılıb.



# Boris Conson: "Azərbaycan etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq"

***Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq. Bu fikirlər Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun VIII Qlobal Bakı Forumuna müraciətində yer alıb. AzVision.az müraciətin tam mətnini təqdim edir.***

"Hörmətli Prezident İlham Əliyev,

Sizə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin builki Qlobal Bakı Forumunun bütün iştirakçılarına ən xoş arzularımı çatdırmaqdan məmnunam. Ümid edirəm ki, builki tədbir əvvəlkilər qədər uğurlu olacaq.

Gələn il Birləşmiş Krallıq ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd ediləcək. Son 30 il ərzində əlaqələrimiz inkişaf edib və Birləşmiş Krallıq-Azərbaycan əməkdaşlığı hazırda yüksəliş dövrünü yaşayır.

Biz sizin ən böyük investorunuz olaraq qalırıq, lakin bizim əlaqələrimiz bundan da uzağa gedir.

Birləşmiş Krallıq Azərbaycanın beynəlxalq məsələlərdə artan rolunu, həmçinin kimyəvi silahların istifadə olunmasına qarşı mübarizədə və narkotik vasitələr qaçaqmalçılığının qarşısının alınmasında dəstəyini, Qoşulmama Hərəkatında sədrliyini və son təxliyələr zamanı Kabil Hava Limanının təhlükəsizliyinin təmin olunmasında öz qoşunlarının göstərdiyi köməyi alqışlayır.

Birlikdə üzləşdiyimiz ən böyük beynəlxalq çağırış iqlim dəyişikliyidir. Bu Forum qlobal istiləşməni məhdudlaşdırmaq kimi ümumi məqsədimizə çatmaq üçün mühüm imkan yaradan COP26 ilə eyni vaxtda keçirilir. Ümid edirəm ki, COP26 davam etdiyi bir vaxtda Azərbaycan çox uğurlu nəticələr əldə etmək istiqamətində öz rolunu oynayacaq. Mən Sizin "yaşıl enerjiyə" verdiyiniz xüsusi dəyəri və Azərbaycanda bərpa olunan enerjinin rolunun artırılması planlarınızı alqışlayıram. Sizin son 27 il ərzində strateji tərəfdaşınız olan BP Azərbaycanda bu keçidi daha çox dəstəkləmək istəyir.

Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi, eləcə də postmünaqişə problemlərinin həllini dəstəkləməyə davam edir. Mən minalar və partlamamış silah-sursatlardan həlak olanlar və yaralananlar barədə xəbərlərdən dəhşətə gəlirəm. Biz Birləşmiş Krallıqda - həm hökumət, həm də Britaniya şirkətləri olaraq - bu problemlərin həlli üçün Azərbaycanın milli minatəmizləmə proqramına və BMT İnkişaf Proqramının mina təmizləmə fəaliyyətinə dəstək göstərməklə mina riskləri barədə məlumatlandırmaya və dünya səviyyəli təcrübəmizi təklif edərək töhfə veririk.

Birləşmiş Krallıq bütün region dövlətlərini, ilk növbədə, Piyada əleyhinə Mina Qadağası Konvensiyası olmaqla, müvafiq sazişlər imzalamaq istiqamətində də addımlar atmağa çağırır.

Mən, həmçinin bütün ölkələri Qadınlar, sülh və təhlükəsizlik üzrə Milli Fəaliyyət planının qəbul olunması ilə qadınların sülh quruculuğunda xüsusi rolunun formalaşdırılmasına təşviq edirəm. Fürsətdən istifadə edərək Azərbaycan cəmiyyətində xüsusi rol oynayan qadınlara British Council Məzunları Mükafatının qaliblərinə, Azərbaycanda qadınların rolunu dəstəkləyən və ölkələrimizin, bütün vətəndaşlarımızın mənafeyi üçün səmərəli şəkildə birgə işləməsinə təkan verən Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri Vendi Mortonun fəaliyyətinə hörmətimi bildirirəm.

Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq. Gələcək illərdə tərəfdaşlığımızın davamlı inkişafına ümid edirəm".

# Regionda böyük gizli anlaşmanın izləri - TƏHLİL

***İsrailin yeni baş naziri Naftali Bennet oktyabrın 22-də Soçidə Rusiya prezidenti Vladimir Putinlə görüşərək, 5 saata yaxın söhbət etmişdi. Liderlər görüşdə müzakirə olunan məsələlər barədə açıqlama verməyiblər. Putin görüşün əvvəlində yalnız onu demişdi ki, İsrail baş naziri ilə müzakirə olunacaq bir çox məsələlər var və onların arasında terrorla mübarizə xüsusi yer tutur.***



Bennet isə Rusiyadan qayıdandan sonra hökumətin iclasında bildirib ki, Rusiya prezidenti ilə Suriyadakı vəziyyət və İranın nüvə proqramını müzakirə ediblər. "Putin İsrailin təhlükəsizlik sahəsində ehtiyaclarına diqqətlə yanaşır",- o vurğulayıb.

Əslində Vladimir Putin vaxtilə Suriyaya hərbi müdaxilənin həyata keçirilməsi ilə bağlı həmin dövr üçün çox riskli və sanksiyalar şəraitində iqtisadi cəhətdən ziyanlı addımının bəhrəsini görməkdədir. Yaxın Şərqdə maraqları olan bütün dövlətlər - ABŞ-dan tutmuş, Türkiyə, İran da daxil olmaqla İsrailə qədər Rusiya ilə bu məsələdə hesablaşmağa məcburdurlar. Moskva isə vəziyyətdən özünün maraqları üçün istifadə edir.

Məsələn, İsraillə danışıqlarda yəhudi dövlətinin "Sputnik-V" vaksinini tanıması, ikitərəfli ticarət dövriyyəsinin artırılması kimi məsələlər gündəm təşkil edirdi. Görünən odur ki, Suriyada sabitliyin təmin olunması məsələsində ABŞ da Rusiya ilə əməkdaşlığa getmək fikrəndirir. Yayılan məlumata görə, yaxın vaxtlarda Yaxın Şərqdə təhlükəsizlik məsələlərinin müzakirəsi məqsədilə ABŞ, Rusiya və İsrailin milli təhlükəsizlik şuralarının katiblərinin görüşü təşkil olunacaq. Hətta bu görüşün İsraildə keçirilmə ehtimalı var.

Sirr deyil ki, İsrail regionda sabitliyin qorunub saxlanılmasına ən böyük əngəl kimi İranı görür. İsrail rəsmiləri dəfələrlə bu məzmunda bəyanatlarla çıxış ediblər. Naftali Bennetdən əvvəl Rusiyaya səfər etmiş İsrailin xarici işlər naziri Yair Lapid bildirmişdi ki, "Nə qədər İran bizim şimal sərhədimizdə terror bazaları tikir və terror təşkilatlarına müasir silahlar göndərir, İsrail sakit dayanmayacaq. Dünya İranın nüvə potensialı əldə etməsinə imkan verməməlidir. Əgər dünya etməsə, İsrail bunun qarşısını almaq hüququnu özündə saxlayır. İsrail İranın nüvə dövlətinə çevrilməsinə imkan verməyəcək".

Qeyd edək ki, İsraili hazırda koalisiya hökuməti idarə edir və əldə olunmuş razılığa əsasən 2023-cü ildə Yair Lapid baş nazir postunda Naftali Benneti əvəz edəcək, ikinci isə xarici işlər naziri olacaq. Bu deməyə imkan verir ki, İsrail dövlətinin İrana qarşı sərt mövqeyini hazırkı baş nazir də paylaşır. Xarici işlər nazirindən təxminən bir ay sonra baş nazirin Rusiyaya səfər etməsi və prezident Putinlə səmimi görüşü, eyni zamanda, Moskvanın xarici işlər naziri Lavrovun dili ilə Tehranın Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməsinə qarşı çıxması onu deməyə əsas verir ki, Vaşinqtonla Rusiya arasında Yaxın Şərqlə bağlı hansısa razılıq əldə olunub və İsrail bu məsələdə maraqlı tərəfdaş kimi çıxış edir.

Qarabağ məsələsinin Azərbaycanın xeyrinə çözülməsi də göstərir ki, Amerika ilə Rusiya arasında bir çox regional məsələlərdə razılıq var. İranla Ermənistan Azərbaycandan fərqli olaraq, geosiyasi havanın dəyişikliyindən gec xəbər tutublar və əvvəlki kimi iki qütb arasında var-gəl etməklə öz maraqlarını müdafiə etməyə çalışırdılar. Halbuki, qütblərin dəyişdiyindən xəbərləri yoxdur.

Güman etmək olar ki, Amerikada hakimiyyətdə olan demokratlar partiyası ənənəvi siyasi strategiyalarına sadiq qalaraq, Rusiya ilə İranın tərəfdaşlığını pozmaq üçün Moskva ilə birtərəfli qaydada əməkdaşlığa getmək qərarına gəliblər. Moskva ilə ilkin razılaşma belə ola bilər ki, İranın Suriya ərazisindəki hərbi obyektlərinin İsrail tərəfindən vurulmasına mane olmasın. Əgər bu əməkdaşlıq genişlənərsə, hətta, İranın ümumiyyətlə Suriyadan çıxarılması baş verə bilər. Rusiyadan əsas tələb isə İrana Suriya ərazisində hər hansı hərbi-siyasi dəstək verilməməsidir. Bu əslində Rusiyanın da maraqlarına cavab verir, çünki, İran hazırda Rusiyanın tərəfdaşı kimi görünsə də, gələcəkdə əsas rəqibinə çevrilə bilər.

Tehran anlayır ki, Rusiyanın tərəfdaşlıqdan üz çevirməsi təklənməsi anlamına gəlir. İran üçün ən təhlükəli ssenari İsrailin ona zərbə endirmə ehtimalıdır. Tehran zərbənin endiriləcəyi mümkün məkanları hesablayır və görünür, onların arasında Azərbaycan ərazisinin ola biləcəyini də mümkün sayıbmış. Ölkəmizə qarşı aqressiv davranışları da buna görə imiş. Lakin Rusiyanın bu məsələdə İsraillə həmrəylik nümayiş etdirməsi İranın hazırki hərbi-siyasi rəhbərlərinin stretji hesablamalarda yanlışlığa yol verdiyini göstərdi. Nəticədə, Tehranın geri çəkilməkdən başqa yolu qalmadı.

***Tofiq Vahid***

# Latviyanın sabiq prezidenti Avropa İttifaqını tənqid etdi

***Avropa İttifaqına üzv ölkələri arasında ədalətsizlik mövcuddur. Taleyüklü məsələlərin həllində məhz quruma üzv olan kiçik dövlətlər səslərini çıxarmalıdırlar. VIII Qlobal Bakı Forumunda çıxışı zamanı Latviyanın sabiq prezidenti Vaira Vike-Freiberga deyib.***




Onun sözlərinə görə, Sovet İttifaqı dağılandan sonra bir sıra ölkələr Avropa İttifaqına daxil olub: "Həmin ölkələr bir sıra təzyiqlərlə üzləşdilər. Lakin bu ölkələrdə demokratikləşmə yarandı".

Latviyanın sabiq prezidenti qeyd edib ki, BMT təşkilatı yenidən qurulmalıdır: "BMT üzv dövlətlərin çağırışına cavab verməlidir. BMT dünyanı nizmalayan qaydaları qəbul edir. 2011-dən bəri gündəmdə qalan məsələlər yerinə yetirilməyib. Elə bir sistem qurulmalıdır ki, dünyanşn bunun ətrafında necə çalışaması müəyyən edilməlidir.

Bu vəzifəni BMT-nin Baş Assambleyası yerinə yeritə bilər. Həmçinin, Ümumdünya Səhiyyə Təşkilatının rolu danılmazdır, lakin praktiki səviyyədə işi sual altında qalır. Vaskinləşmə dünyada ədalətli paylanmır".

# "BMT Təhlükəsizlik Şurası zənginlər klubuna çevrilməli deyil" - Vanq Çao

***"Pandemiyadan sonra çoxsaylı suallar ortaya çıxır. Bu suallara cavab axtararkən ziddiyyətli məqamlara yol verilməməlidir".***



Bunu VIII Qlobal Bakı Forumunda çıxışında Çin Xalq Xarici Əlaqələr İnstitutunun prezidenti Vanq Çao bildirib. Onun sözlərinə görə, pandemiyadan sonra yeni dünya nizamı haqqında düşünülməlidir:

"Pandemiyadan sonra təbii resursların səfərbərliyi qlobal artıma təkan verə bilər. Biz qloballaşmadan qaça bilmərik. Qlobal təchizat zəncirlərinin dağılması dünya nizamına ziddir. Beynəlxalq məsələlərin həlli bütün səylərin cəmlənməsi ilə mümkündür".

Vanq Çao qeyd edib ki, Çin təhlükəsizliyə, sülhə, beynəlxalq səylərin birləşdirilməsinə dəstəyini davam etdirəcək: "BMT Təhlükəsizlik Şurasının səlahiyyətləri də artırılmalıdır. BMT Təhlükəsizlik Şurası zənginlər klubuna çevrilməli deyil".

# Dmitri Kramarenko: "Portuqaliyalılar bizi "sürüdülər"



***Azərbaycan millisinin sabiq qapıçısı, Rusiya MOİK-inin qolkiperlərlə çalışan məşqçisi Dmitri Kramarenko "matchtv"yə geniş müsahibə verib.***

Apasport.az saytının məlumatına görə, 47 yaşlı mütəxəssis Azərbaycan yığması, qapıçı olması, atası və qızı barədə də danışıb.

***- Demək olar ki, MOİK-də qeyri-formal olaraq qapıçılarla işləyən iki məşqçi var?***

- İqor Akinfeyevə can sağlığı arzulayıram ki, o hələ çox oynasın. Mən Azərbaycan millisinin düşərgəsinə gedəndə digər qapıçılara İqor nəzarət edir, onlara tapşırıqlar verir. Bu müddət o qədər uzun olmadı, bir həftəyə yaxın sürdü. İndi artıq heç hara getmirəm. Onunla çalışmaq mənə asandır. Bir-birimizi çoxdan tanıyırıq. Mən karyeramı bitirəndə Akinfeyev yeni başlayırdı.

***- MOİK-ə gəlişinizin Akinfeyev sayəsində gerçəkləşdiyini demisiz. Təyinatdan sonrakı ilk dialoqu xatırlaya bilərsiz?***

- Yeni il öncəsi Bakıdan Moskvaya məzuniyyətə gəldim. MOİK-in seleksiya xidmətinin rəhbəri Andrey Movsesyan zəng vurdu və danışmaq üçün kluba çağırdı. Görüşdə Roman Babayev, Aleksey Berezutski, Mixail Qonçarenko da iştirak edirdi. Fikirləşmək üçün vaxt istəyib İqora zəng edib. O, beşə yaxın namizədin olduğunu, lakin məni təklif etdiyini bildirdi.

***- Son yarım ildə MOİK-in baş məşqçiləri bir neçə dəfə dəyişib. Qapıçılarla işləyən məşqçi məsələsi gündəmə gəlməyib?***

- Mən öz işimi görürdüm. İvitsa Oliçi də yaxşı tanıyıram. Bizim yollarımız təkcə MOİK-də deyil, mən Azərbaycan, o Xorvatiya yığmasında çalışanda da kəsişib. Eyni seçmə qrupda mübarizə aparırdıq. Yaxşı münasibətləri saxlamışıq.

***- Qızınız Lalənin məşqçisi olmuş İrina Vinerin metodları birmənalı qarşılanmır. İdmançı atası kimi bunu qəbul edirsiz?***

- Mən və yoldaşım Lalənin bədii gimnastika ilə Bakıda məşğul olmasının təşəbbüskarı idik. Orada yaxşı məktəb, yaxşı məşqçi var idi. Sonradan onda alınmağa başlayanda turnirlərin birində Rusiya yığmasının məşqçiləri ona diqqət yetirdi. Başa düşdük ki, insan bununla yaşayır. Bütün çətinliklərə, göz yaşlarına, zədələrə baxmayaraq ona mane ola bilməzdim.

***- Qızınızın güclü xarakteri var?***

- Bəli. O, babasına, atam Sergey Kramarenkoya bənzəyir. O da tez-tez evə gəlib hər şeyi bitirdiyini söyləyir, səhər isə məşqə hamıdan tez yollanırdı. Meydanlar yaxşı olmadığından özü qapıçı meydanını sulayırdı. 20 ildən artıq belə sürdü. Atamın yolu ilə getmək istəmirdim. Mən meydanda oynamağa üstünlük verirdim. 1973-cü il təvəllüdlülərdən ibarət komanda ilə Bakı çempionatında sahə oyunçusu kimi çıxış edirdim. 1974-cü il təvəllüdlülərdə isə artıq qapıda idim. Atam dedi ki, məndə lazım olan sürət yoxdur, amma texnika var. Deməli qapıçı olmalıyam və mən də oldum. Bizdə Qafqazda atanın sözü qanundur. Buna görə ona ağlasığmaz dərəcədə minnətdaram.

***- Karyeranızda 7 qol buraxdığınız oyun olub?***

- Bəli, olub. Bu üzücü idi. Biz Portuqaliya millisi ilə oynayırdıq. Onda hələ Kriştiano Ronaldo yox idi. Amma komanda çox güclü idi. Biz səfərdə 0:7 hesabı ilə uduzduq. Çox məyus idim və başa düşürdüm ki, bu qədər top buraxmağa haqqım yox idi. Orda çox sərt matç oldu və portuqaliyalılar bizi "sürüdülər". Özümə söz vermişdim ki, cavab oyununda ən azı uduzmayacağıq. Siz nə düşünürsüz? Biz iki gün oynadıq. İlk gün hesab 0:0 olanda stadionda işıqlar söndü. Ertəsi gün davam elədik və yekunda heç-heçə oynadıq - 1:1. Bu da böyük uğur idi.

# "Kayrat" - "Qarabağ": Start heyətləri açıqlandı

***Konfrans Liqasının qrup mərhələsində "Qarabağ"la qarşılaşacaq "Kayrat"ın təxmini "11-liy"i açıqlanıb.***

Apasport.az saytının Qazaxıstan mətbuatına istinadən məlumatına görə, baş məşqçi Kurban Berdiyevin start heyəti bəllidir.

Kapitan Stas Pokatilovun qapıda dayanacağına şübhə yoxdur. Təcrübəli mütəxəssis yenə 5-li müdafiəyə üstünlük verəcək. Müdafiənin mərkəzindəki "trio"nu Nurali Alip, Rade Duqaliç və Maki Banyak təşkil edəcək. Müdafiənin sol cinahında Yan Voroqovski, sağda isə Kamo Oqanesyan çıxış edəcək.

Dayaq yarımmüdafiəçisi mövqeyində ilk dəqiqələrdə Denis Polyakov yer alacaq. Orta sahədə Rikardo Alveş və Neboyşa Kosoviç hücuma daha yaxın oynayacaq. Yatsek Quralski, Aybol Abiken və Quljiqit Alıkulov orta sahədə alternativ qismində öz vaxtını gözləyəcək.




5-3-2 sxemində Joze Kante ilə Joao Paulonun hücumda qol axtarışında olması gözlənilir. Düzdür, onlardan birinin əvəzinə Vaqner Lavın da start heyətində meydana çıxması mümkündür. Artur Şuşenaçev isə yəqin ki, matçın gedişində mübarizəyə qoşula bilər.

O ki qaldı "Qarabağ"a, baş məşqçi Qurban Qurbanov oyun sxemində və heyətdə heç bir dəyişiklik etməyəcək. Qapı xətti Şahruddin Məhəmmədəliyevə həvalə olunacaq. Müdafiənin mərkəzində Kevin Medina və kapitan Maksim Medvedev tandem təşkil edəcəksə, sol cinah Toral Bayramova, sağ cinah isə Abbas Hüseynova tapşırılacaq.

Orta sahədəki "trio" Qara Qarayev, Patrik Andrade və Filip Ozobiçdən ibarət olacaq. Yüngül zədəsi olduğu bildirilən sol cinah yarımmüdafiəçisi Abdullah Zubirin buna baxmayaraq, ilk dəqiqələrdən meydanda olması gözlənilir. Sağda isə Kadi Borqes yer alacaq. Hücumun mərkəzində də İbrahima Vadjinin iştirakı ehtimal edilir. Lakin seneqallı forvardın son vaxtlar "dişsiz" görünməsi səbəbindən Qurban Qurbanov start heyətində Ramil Şeydayevə də şans verə bilər.

Qeyd edək ki, bu gün Almatıda keçiriləcək "Kayrat" - "Qarabağ" oyunu Bakı vaxtı ilə saat 19:30-da start götürəcək.



# "Qarabağ" UEFA reytinqində geriləd

***Çempionlar Liqasının qrup mərhələsinin IV turundan sonra klubların UEFA reytinqi açıqlanıb.***

Apasport.az saytının məlumatına görə, ilk "100-lük"də Azərbaycanın yalnız bir klubu var.

"Qarabağ" siyahıda 64-cü yerə şərikdir. Ağdam təmsilçisinin hesabında 21,000 xal var.

Qurban Qurbanovun yetirmələri daha 4 komanda ilə eyni göstəriciyə malikdir. "Real-Sosyedad", "Borussiya" (Mönhenqladbax), "Feyenoord" və "Lill"lə şərikdir. Sonuncular bu tur "Qarabağ"a çatıb. Bu beş komanda ötən həftə ilə müqayisədə 1 pillə geriləyib. Buna "Volfsburq"un irəliləyişi səbəb olub.

Qeyd edək ki, "Qarabağ" bu gün Konfrans Liqasında "Kayrat"ın qonağı olacaq.

# "Mançester Yunayted" müdafiəçisini 1 aylıq itirdi

***"Mançester Yunayted" müdafiəçisi Rafael Varanı itirib.***



Apasport.az saytının məlumatına görə, Fransa millisinin üzvü Çempionlar Liqasının qrup mərhələsinin IV turunda "Atalanta" ilə oyunda zədələnib.

Tibbi müayinədən sonra 28 yaşlı mərkəz müdafiəçisinin bud əzələsindən xəsarət aldığı müəyyənləşib. Həkimlər onun təxminən bir ay yaşıl meydanlardan uzaq qalacağını açıqlayıb.

Qeyd edək ki, Rafael Varan bu mövsüm 9 oyunda iştirak edib, 1 məhsuldar ötürmə verib.

# Dibala müqaviləni razılaşdırdı

***"Yuventus"un hücumçusu Paulo Dibala, nəhayət ki, klubla yeni müqavilənin şərtlərini razılaşdırıb.***

Apasport.az xəbər verir ki, bu barədə tanınmış jurnalist Nikolo Skira məlumat yayıb.

Onun sözlərinə görə, Argentina millisinin üzvünün yeni sözləşməsi 2026-cı ilin yayına kimi nəzərdə tutulacaq. 28 yaşlı ön xətt oyunçusunun bundan sonra illik maaşı 8,5 milyon avro təşkil edəcək. Daha 1,5 milyon avro isə müxtəlif bonuslar şəklində veriləcək. Futbolçunun meneceri müqaviləni rəsmiləşdirmək üçün yaxın iki həftə ərzində Turinə yollanacaq.

Qeyd edək ki, bu mövsüm A seriyasında keçirdiyi 8 oyunda 3 qol vuran Paulo Dibala Çempionlar Liqasının qrup mərhələsinin "Zenit"lə son görüşündə 4:2 hesablı qələbəyə dubla töhfə verib.